# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 87 (3411) Cümə axşamı / 25 noyabr - 1 dekabr 2021-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Vertolyot terrorunun gizlinləri



**Sadir Məmmədov,**
keçmiş DQMV-nin Daxili İşlər İdarəsinin rəis müavini istefada olan polis polkovniki

***Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində xalqımızın başına gətirilən ən ağır faciələrdən biri də 20 Noyabr vertolyot terroru oldu. 1991-ci il noyabrın 20-də sülh missiyası ilə uçan hava gəmisinin vurulması nəticəsində Azərbaycanın görkəmli dövlət xadimləri və ziyalıları şəhid oldu. Faciənin üzərindən 30 il ötməsinə rəğmən terroru törədənlər, onun təşkilatçıları cinayət məsuliyyətinə cəlb edilib cəzalandırılmayıb. Hadisənin detallarında hələ də bir sıra qaranlıq məqamlar var...***

*Polyaniçko dedi ki, Şuşa kimdə olacaqsa, o udacaq...*

Səh. 3

# Brüssel öncəsi Soçi görüşü



**N*oyabrın 26-da Kremlin təşəbbüsü ilə Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderləri Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyanın növbəti üçtərəfli görüşü olacaq. Artıq görüşdə müzakirə edilməsi nəzərdə tutulan məsələlərlə bağlı Moskva Bakı və İrəvanın nəbzini yoxlayıb. Vladimir Putinin göstərişi ilə Rusiyanın Baş nazirinin müavini Aleksey Overçuk həm Bakıya, həm də İrəvana səfər edib. Maraqlıdır, Avropa İttifaqının təşəbbüsü ilə dekabrın 15-də "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində reallaşacaq Brüssel görüşü öncəsi tərəflər Soçidə sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların bərpası, sülh sazişinə əngəl yaradan məqamlarla bağlı konkret razılaşmalar əldə edə biləcəklərmi? Hafta.az ekspertlərlə bu suallara aydınlıq gətirməyə çalışıb.***

### Qabil Hüseynli, politoloq:

***- Rusiya ilə Qərb Cənubi Qafqazda dominantlığı təmin etmək üçün ciddi rəqabət aparır. Rusiya Cənubi Qafqazı özünün "arxa bağçası" hesab edir. Hələ Valday konfransında çıxış edən Putin bildirmişdi ki, Azərbaycan və Ermənistanla birlikdə sərhərdərin demarkasiya və delimitasiyasını, kommunikasiyaların açılması məsələlərini məhz Rusiyanın moderatorluğu ilə həll edəcəklər. Üçüncü tərəfin prosesə qoşulmasına ehtiyac yoxdur.***

Bundan əvvəl noyabrın 9-na təyin olunan üçtərəfli görüşün baş tutmama səbəbinə gəldikdə isə, bir gözü Qərbdə olan Paşinyan həmin görüşü faktiki boykot etdi və Qərb dövlətləri ilə danışıqlar apardı. Nəticədə Paşinyan Fransanın, eləcə də Avropa Birliyi Şurasının prezidenti milliyyətcə fransız Şarl Mişelin köməkliyi ilə İlham Əliyevlə görüşün təşkilinə çalışdı və buna nail oldular. Azərbaycan Prezidentinin razı salınmasında Avropa Şurasının prezidenti dəridən-qabıqdan çıxdı. Bundan sonra bu təşəbbüslərinə görə Rusiyanın Paşinyanı sıxan telefon zəngləri öz nəticəsini verdi. Putin dekabrın 15-nə nəzərdə tutulan Brüssel görüşünü qabaqlayaraq noyabrın 26-na Soçi görüşünü təyin elədi. Soçidə qeyd etdiyiniz məsələlərlə yanaşı, Paşinyanın "anklav ərazilər" məsələsini də qaldırmasını istisna deyil. Paşinyan Zəngəzurdan açılan yolda gömrük postu qoyacağını önə çəkib. Dəmiryolunda gömrüyün qurulmasından söz gedirsə, Azərbaycan qətiyyən buna razı ola bilməz. Naxçıvana gedən qatarın Ermənistan ərazisində yoxlanılmasına heç bir ehtiyac yoxdur. Anklav ərazilər məsələsində də ciddi qarşıdurmalar yarana bilər. Görüşdə Azərbaycan üçün ən mühüm məsələ olan sülh sazişinin imzalanması ehtimalı çox azdır. Biz güman edirdik ki, saziş bu ilin sonlarına doğru imzalana bilər. Belə görünür ki, proses uzanır. Bütün hallarda danışıqlar prosesinin təzələnməsi müsbətdir. Azərbaycan sərhəd xətlərinin müəyyənləşməsi məsələsində heç kəsə güzəştə getməyəcək.



### Çingiz Qənizadə, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri:

***- Məhz Rusiya Paşinyanı noyabrın 26-da Soçidə masa arxasında oturmağa məcbur edir. Gah Rusiyaya, gah da Qərbə meyl göstərən Ermənistan Moskva əleyhinə çıxışlar edərək Avropa ilə yaxınlaşsa da, Kremlin əmrindən çıxa bilməz. Son vaxtlar Ermənistandan Rusiyaya yönələn "hədələr", Azərbaycan sərhəddində və Şuşa ətrafında baş verən terror və terorçu "Azərbaycana verilərsə, növbəti qumbara Rusiya səfirliyinə atılacaq" kimi təhdidlərin arxasında həm də Paşinyan durur. O, kimlərinsə diqtəsi ilə ATƏT-in Minsk Qrupunu yenidən bu prosesə cəlb etməklə hansısa status və yaxud da özlərinin marağında olan məsələni həll etməyə çalışır.***

Moskva Avropa İttifaqında üçtərəfli görüşə elə bir reaksiya verdi ki, Paşinyan Soçidə görüşməyə razılaşdı. Deməli, Rusiyanın bölgədən sıxışdırmaq cəhdləri əbəsdir. Və düşünürəm ki, biz 10 noyabr bəyanatı ilə 1960 sülhməramlı kontingentinin burda yerləşdirilməsi ilə çox düzgün addım atdıq. Beynəlxalq təşkilatlar da bu reallığı və erməninin törətdiyi əməlləri görüblər. Ermənistan sanki hər tərəfdən təcrid olunur. Son anda sağa-sola cəhd etməklə nəsə əldə etmək istəsə də, bu absurddur. Sonda düşünürəm ki, Zəngəzur dəhlizi açılacaq, sərhədlərin delimitasiyası olacaq, xəritələr müəyyənləşəcək. Nəticədə Ermənistan sülh sazişini imzalayıb Azərbaycanın ərazilərini tanımalıdır.

Səh. 2

"

*Azərbaycan sərhədlərin müəyyənləşdirilməsi məsələsində heç kəsə güzəştə getməyəcək*

*Bu, həm də Ermənistan hökumətinin başçısına verilən dərsdir*

*Biz 10 noyabr bəyanatı ilə 1960 sülhməramlı kontingentinin burda yerləşdirilməsi ilə çox düzgün addım atdıq*

*Sərhədlər müəyyənləşmədən Ermənistan üzərindən dəhlizin açılmasına yol verməк olmaz*

MÜSAHİB



**Tofiq Zülfüqarov,**
sabiq xarici işlər naziri, politoloq

■ Nə Brüsseldəki, nə də Soçidəki görüşdən ciddi bir nəticə gözlənilmir...

■ Paşinyanın siyasəti Azərbaycan üçün də daha qətiyyətli addımlar atmaq üçün şərait yaradır...

■ Guya Fransa qoşun göndərib Ermənistanın tərəfində vuruşacaq? Təbii ki, yox...

Səh. 2

GÜNÜN FOTOSU...




**Yunanıstanda "Şuşa Azərbaycandır" sözləri erməniləri qorxuya saldı...**

GÜNÜN SİTATI

"*Hətta Moskvada mənə sual verilir ki, Füzuli Beynəlxalq Aeroportu cəmi 8 aya necə tikilib? Bu doğrudan da bir möcüzədir*"



**Polad Bülbüloğlu,**
Azərbaycanın Rusiyadakı səfiri

KARİKATURA




**Minalar can almaqda davam edir...**

"

## Qazilərimizin pensiyaları kifayət qədər yüksəkdir

**Musa Quliyev,**
Milli Məclisin deputatı

Gələn ilin ikinci yarısında qiymət artımının qarşısını almış olacağıq.

Səh. 6

STATİSTİKA



■ **Azərbaycanda 2021-ci ilin əvvəlinə dövlət qurumlarında qadın təmsilçilərin statistikası açıqlanıb.**

Belə ki, hazırda ölkədə 93 qadın hakim var. Yerli icra hakimiyyəti başçının müavinlərindən 72-si, nazir müavinlərindən 8-i, yerli icra başçılarından isə 2-si (Abşeron və Sədərək rayonunun icra başçıları) qadındır. Azərbaycanda 8 qadın universitet rektoru, 15 qadın kollec, 9 qadın peşə təhsili, 1345 qadın isə ümumi təhsil müəssisələrinin direktorudur.



Səh. 5

## Yerində sayan Azərbaycan elmi

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev M.İ.Quliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.** Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Musa İsa oğlu Quliyev "Şöhrət" ordeni ilə təltif edilib.

***

**Prezident İlham Əliyev "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında" fərman imzalayıb.**

Fərmana əsasən, bu sahədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi xidmətlərin sayı artırılıb.

Bu xidmətlərin siyahısına şəhid statusu verilmiş şəxsin vərəsələrinə dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu və hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrinin) yerinə yetirilməsi ilə əlaqədar xəsarət (yaralanma, travma, kontuziya) alan hərbi qulluqçulara dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu daxil edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu xidmətləri 2022-ci il yanvarın 1-dən təqdim edəcək.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.**

Söhbət zamanı ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə edilib, bu il ticarət dövriyyəsinin 7 faiz artdığı qeyd olunub. Rusiya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyi bildirilərək, Prezident İlham Əliyevin bu işdə dəstəyinin önəmi vurğulanıb. Bildirilib ki, görüş keçirildiyi vaxtda eyni zamanda Azərbaycan-Rusiya işgüzar dairələri arasında da danışıqlar davam edir. Görüşdə Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu məsələləri geniş müzakirə olunub. Əminlik ifadə edilib ki, Azərbaycan-Rusiya münasibətləri müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcək.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyəti və eləcə də gələcək planlar haqqında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı İlham Əliyev bu sahədə göstərdiyi səylərə görə Aleksey Overçuka təşəkkürünü bildirib. Görüşdə o da qeyd olunub ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının tezliklə açılması bölgədə sabitliyə və iqtisadi inkişafa öz töhfəsinin verəcəkdir.

# Putin Şarl Mişellə Cənubi Qafqazı müzakirə edib

**Rusiya Prezidenti Vladimir Putin Avropa Şurasının sədri Şarl Mişel arasında telefon danışığı olub. Telefon danışığı zamanı bir sıra aktual beynəlxalq problemlər müzakirə olunub.**

"Vladimir Putin Şarl Mişelin xahişi ilə Dağlıq Qarabağ üzrə 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli razılaşmaların müddəalarının həyata keçirilməsi, o cümlədən dinc həyatın bərqərar edilməsi, iqtisadi münasibətlərin bərpası, Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılması istiqamətində atılan addımlar barədə məlumat verib.

Məhz bu məsələlərə Rusiya və Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin noyabrın 26-da Soçidə keçiriləcək görüşündə baxılması planlaşdırılır", deyə Kremlin məlumatında qeyd olunub. Bundan başqa, Putin və Mişel telefon danışığı zamanı Ukrayna münaqişəsi və Belarus-Avropa İttifaqı sərhədində miqrant böhranını ətraflı müzakirə ediblər, Əfqanıstan və Liviya problemlərinə toxunublar.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor: Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ermənistan köhnə mövqeyində qalıb

## Gündəm

***Sabiq Xarici İşlər naziri Tofiq Zülfüqarovla hafta.az üçün növbəti söhbətimizdə Rusiya və Qərbin Qarabağ məsələsinin tam həlli üçün təklif etdiyi modelləri təhlil etməyə çalışdıq, Azərbaycan və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə, dekabrın 15-də isə Brüsseldə nəzərdə tutulan görüşləri ərəfəsində İrəvandakı mövcud siyasi durum, baş nazir Paşinyanın son bəyanat və açıqlamalarıyla sərgilədiyi mövqe və s. fonunda sözügedən görüşlərdən gözlənilən gerçək nəticələrdən bəhs etdik.***



**Tofiq Zülfüqarov,**
sabiq xarici işlər naziri, politoloq

***-Tofiq müəllim, gerçəklik bundan ibarətdir ki, hazırda beynəlxalq müstəvidə Qarabağ məsələsinin guya birdəfəlik həlli üçün əsasən iki model təklif olunur. Rusiyanın irəli sürüb dəstəklədiyi birinci model ATƏT-in Minsk Qrupundan kənarda Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasını, kommunikasiyaların bərpası, demarkasiya və delimitasiyanın aparılmasını, Qarabağın "statusu" ilə bağlı qərarın qeyri-müəyyən müddətə təxirə salınmasını nəzərdə tutur. İkinci model ABŞ və Fransa tərəfindən ATƏT-in Minsk Qrupu çərçivəsində irəli sürülür və bu, xüsusilə, Qarabağın "statusu"nun referendum yolu ilə müəyyən edilməsini və konkret zaman çərçivəsində verilməsini, referendumun keçirilməsinə şərait yaratmaq üçün keçmiş Dağlıq Qarabağ ərazisinin beynəlxalq nəzarətə verilməsi, təhlükələri neytrallaşdırmaq üçün bufer zonaya - təhlükəsizlik zonasına beynəlxalq sülhməramlı kontingentin daxil edilməsini nəzərdə tutur. Azərbaycan 1-ci, Ermənistan isə 2-ci modeli qəbul edir. Belə olan halda, sülh razılaşması mümkün olacaqmı?***

- Əvvəla, birmənalı olaraq demək olmaz ki, Rusiyanın təklif etdiyi model və ya mövqeyi qəti şəkildə belədir, yaxud Qərbin də digər fərqli modelin tətbiqində mövqeyi qətidir. Çünki hər iki yanaşmada bir çox oxşar nüanslar da mövcuddur. Məsələ ondan ibarətdir ki, ötənilki 44 günlük savaşdan etibarən vəziyyət tamamilə dəyişib. Və Azərbaycan sanki münaqişənin tam həllinə bir şans verib. Həmin şans nədən ibarətdir? Söhbət statusdan getmir. Söhbət ondan gedir ki, rəsmi Bakının öz ərazisində kompakt yaşayan ermənilərə verdiyi və verməyə hazır olduğu hüquqlar vətəndaşlıq hüquqlarıdır və dövlətimiz öz siyasətini də bu istiqamətdə həyata keçirir. Və demək olar ki, bu fikir artıq Rusiyada da mövcuddur. Çünki Putinin, Lavrovun "status sonrakı məsələdir" deməsi onu göstərir ki, əsas məsələ Qarabağda həyatın normallaşması və belə deyək, əlaqələrin, kommunikasiyaların bərpasıdır. Yəni bu, təxminən ona oxşayır ki, Azərbaycan deyir ki, biz burada reinteqrasiya prosesləri aparırıq. Və bu cür siyasət istiqamətində il ərzində Bakıdan İrəvana belə siqnallar gedirdi ki, gəlin sülhü seçək, sülh hamıya fayda gətirir və gətirəcəkdir və s. Belə çağırışlar qardaş Türkiyə ilə Şuşa bəyannaməsi imzalananda da həm Bakı, həm Ankara tərəfindən səslənib. Amma təəssüf ki, qarşı tərəfdən məqbul reaksiya görmürük.

Biz Ermənistanı dəvət edirdik ki, siz bu prosesdə müsbət şəkildə iştirak etsəniz, Qarabağda erməni əhalinin qalması üçün şərait yaradarıq. Yox, əgər konfrontasiya yolunu seçsəniz, sizin heç bir şansınız yoxdur. Nəyə görə? Çünki birincisi Azərbaycanın, Türkiyənin demoqrafik, iqtisadi, hərbi potensialı Ermənistanın potensialını qat-qat üstələyir. İkincisi, beynəlxalq şərait də Ermənistanın xeyrinə deyil. Yəni hansısa xarici ölkə, güc gəlib ermənilərin əvəzinə silah alıb vuruşmağa hazır deyil. Rusiyanın mövqeyi bunu göstərir. Hətta Fransanın da... Guya Fransa qoşun göndərib Ermənistanın tərəfində vuruşacaq? Təbii ki, yox. Bunun üçün onun nə marağı var, nə də imkanı... Yəni bu baxımdan, təkrar edirəm, Azərbaycan Ermənistana bir şans verib ki, gəlin bu şansdan yararlanın, heç olmasa, Qarabağda qalan 20-25 min erməni Azərbaycan vətəndaşlığını alıb digər vətəndaşlarımız kimi yaşasınlar və siz də bu prosesdə bizə yardımçı olun. Amma əgər siz qarşıdurma yolunu seçsəniz, heç həmin 25 minin də Azərbaycan torpağında qalıb yaşama şansı olmayacaq. Yəni balans bizim xeyrimizədir. Və təəssüflər olsun ki, ötən bir ildən çox müddətdə ermənilər Azərbaycanın verdiyi şansı dəyərləndirmədilər. İndi, bu günlərdə də Paşinyanın verdiyi açıqlamalar onu sübut edir ki, Ermənistan köhnə mövqeyində qalıb.

> Guya Fransa qoşun göndərib Ermənistanın tərəfində vuruşacaq? Təbii ki, yox...

Yəni demək istəyir ki, biz Qarabağın Azərbaycandan ayrılması siyasətini davam etdirəcəyik. Başqa sözlə, bundan sonra da rəsmi İrəvan tərəfindən Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qəsd siyasəti aparılacaq.

Paşinyanın sonuncu mətbuat konfransında Qarabağla, sərhədlərlə, Zəngəzur dəhlizi və s. ilə bağlı söylədikləri məhz bunu göstərir. Və sonda belə bir mövqe Azərbaycan üçün müəyyən problemlər yaratsa da, Ermənistanı tamamilə fəlakətə aparıb çıxardacaq. Çünki həmin gözlənilən fəlakət barəsində ermənilərə Azərbaycan da, Türkiyə də, hətta Rusiya da dəfələrlə xəbərdarlıq edib.

Yəni bu baxımdan Ermənistanın siyasi dairələrinin özlərini və xalqlarını haraya sürüklədiklərini Allah bilir... Sadəcə, belə qənaətə gəlmək olur ki, bunlar reallığı anlaya bilmirlər. Əhali Ermənistandan da, Qarabağdan da qaçır, iqtisadi, hərbi və digər sahələrdə böhran gündən-günə güclənir. İki gündən bir nazir dəyişilir.

Bu vəziyyətdə ola-ola rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünə qarşı hər hansı bir ardıcıl, uğurlu siyasət apara bilərmi? Yalnız Laçın dəhlizini bağlasaq, məsələ bitəcək... Yəni tələb, ultimatum qoyacağıq ki, Qarabağdakı qanunsuz silahlı birləşmələr, terrorçular çıxarılsın və s. Nə edəcəklər? İstənilən müstəqil ölkə bizim yerimizdə olsa, belə addımları atar... Bir sözlə, mən hesab edirəm ki, Paşinyan yenə də öz xalqına qarşı çox xəyanətkar bir siyasət aparır. Çünki populist siyasət arxasında öz siyasi varlığını xilas etməyə çalışır... Və belə bir durumda Paşinyanın siyasəti Azərbaycan üçün də daha qətiyyətli addımlar atmaq üçün şərait yaradır. Həm Zəngəzur, həm sərhəd və Qarabağ məsələlərində... Sən mənim ərazi bütövlüyümü de-fakto tanımırsansa, deməli, mən də sənin ərazi bütövlüyünü tanımaq məcburiyyətində deyiləm...

***- Bəzi şərhçilər, o cümlədən bir sıra erməni politoloqları da belə bir iddia irəli sürürlər ki, guya Paşinyan "Rusiyanın demarkasiya və delimitasiya təkliflərini qəbul etdim" deməklə son etiraz aksiyalarını özü körükləyir ki, Rusiyanın planları baş tutmasın və Qərbin modeli işə düşsün. Maraqlıdır ki, Rusiya meyilli müxalifət də bu son eturazlara qatılmadı...***

- Bilirsiz, bütün bunlar köhnə oyunlar, manipulyasiyalar, fokuslardır... Amma ermənilərin dırnaqarası "vətənpərvərliyi"ni bütün dünya gördü. Hamı anladı ki, onlar Azərbaycan torpaqları üçün vuruşmaq istəmir. Qısa müddət çəkən bir savaşda Ermənistan ordusunda 10 min fərari meydana çıxdı... Və 44 günlük müharibədəki ağır məğlubiyyətdən sonra Ermənistanın əksəriyyəti Paşinyanı dəstəklədi.

Bu da bir daha onu göstərir ki, onlar müharibə istəmir... Yəni belə bir fonda, həmişə olduğu kimi, tamaşa qurmaq, təbii ki, mümkün deyil. Çünki dünya hər şeyi aydın gördü və görməkdədir. Bir sözlə, 5-10 nəfər çığır-bağır salanları ciddi qəbul etmək doğru deyil... Həm də ona görə ki, bizdən fərqli olaraq Ermənistan cəmiyyəti Qarabağ məsələsində həmrəylik nümayiş etdirmir və görünür, heç bunu istəmir... Hələ 2020-ci ilin Tovuz döyüşlərindən sonra Bakıdakı milli birlik atmosferini, həmrəylik yürüşünü misal göstərmək kifayətdir.

Yüz minlərlə Azərbaycan vətəndaşı könüllü olaraq orduda döyüşməyə yazıldı... Amma Ermənistanda oxşar bir şey olmadı. Əksinə, əksəriyyət döyüşlərdən qaçmağa başladı... İkincisi, biz anlamalıyıq ki, hazırkı vəziyyətdə Rusiya üçün də ermənilərin oyunları gərəkli deyil. Çünki Ermənistanın oyunları Moskvanı bu və ya digər şəkildə Azərbaycana qarşı yönləndirməyə hesablanıb. Və Rusiya Azərbaycana qarşı yönələcəyi təqdirdə, Ərdoğan demişkən, qarşılarında Türkiyəni də görəcəklər. Bu isə Kremlə strateji baxımdan lazım deyil... Hazırda Rusiyanın Ukraynada problemləri var, Qərblə, ABŞ-la siyasi, iqtisadi qarşıdurması var. Türkiyə ilə böyük çətinliklə Cənubi Qafqazda balans yaradıblar. İndi, Ermənistanın ucuz oyunlarına görə Moskva Ankara ilə yenidən münasibətləri pozmalıdır?.. Guya Qərb gəlib Ermənistanı müdafiə edəcək? Biz Qərbin müdafiəsini real şəkildə nə Gürcüstanda, nə də Ukraynada gördük... Yəni bütün deyilənlərdən belə nəticəyə gəlmək olur ki, geopolitik balans da Ermənistanın xeyrinə deyil.

***- Sizcə, 9 noyabr Moskva görüşü baş tutmadıqdan sonra Putin Brüssel görüşündən öncəki Soçi görüşünü təşkil etməklə nəyə nail olmaq istəyir? Ümumiyyətlə, bu görüşlərdən konkret nəsə gözləyirsizmi?***

- Azərbaycanda bəziləri yanlışlıqla Brüssel görüşlərinə çox önəm verir. Bu görüşün mahiyyəti nədən ibarətdir? Avropa İttifaqı xoş məram nümayiş etdirmək məqsədilə dövlət başçılarına bir-biri ilə normal ünsiyyət qurmaq üçün bir meydan verir. Amma orada nə danışıqlar formatı var, nə masada hansısa imzalanası sənəd toplusu var. Sadəcə, görüş üçün bir məkan verilir. Soçidə isə fərqli bir durum var. Artıq bir ilə yaxındır ki, orada tətbiq olunan format özünü göstərir, yəni işlək vəziyyətdədir. Bu formatın üzvləri Azərbaycan, Ermənistan və Rusiyadır, eyni zamanda Türkiyənin də burada yeri var. Düzdü, rəsmi Ankara birbaşa belə görüşlərə qatılmır, amma prosesin içindədir. Türkiyənin müşahidəçiləri var, hər görüşdən əvvəl və sonra razılaşmalar olur. Bir sözlə, görsənir ki, bu, işlək bir formatdır. İndi nə dərəcədə pisdir, yaxşıdır, bu, başqa məsələdir.

Hərçənd, müsbət tərəfləri mövcuddur. Brüsseldə isə, öncə dediyim kimi, sadəcə, görüş üçün verilən bir məkanda ölkə başçıları Avropa siyasətçiləri qarşısında bəyanatlar verəcəklər. Və bu bəyanatlar tərəflərin mövqelərini əks etdirəcək. Məhz buna görə də Paşinyan həmin görüşlər ərəfəsində öz mövqeyini açıqladı. Və Ermənistan liderinin belə bir mövqe sərgilədiyi halda demək olar ki, Brüsseldəki kimi, Soçidəki görüşdən də ciddi bir nəticə gözləmək olmaz...

***- Tofiq müəllim, amma Putinin Soçi görüşü ilə konkret olaraq nəyə nail olmaq istəməsi haqda danışmadınız...***

- Bu, çox maraqlı bir sualdır. Hiss olunur ki, Ermənistan-Rusiya gərginliyi, yəni İrəvanda rusafob çıxışlar artmaqdadır... Təbii ki, bu cür davranış Kremldəki heç kəsin, eləcə də Rusiya lideri Putinin xoşuna gəlməz. Bu baxımdan onun nəyə nail olmaq istədiyini anlamaq olar.

✍ **Sultan Laçın**

Səh. 1

# Brüssel öncəsi Soçi görüşü

### Natiq Cəfərli, politoloq:

***- Soçi görüşünü dekabr ayında Brüsseldə nəzərdə tutulan görüş ortaya çıxardı. Bu da onunla bağlıdır ki, Moskva regionda əldə etdiyi təşəbbüsü başqa bir paytaxta ötürmək istəmir. Brüssel görüşündən öncə Soçidə hansısa sənədlərin imzalanması Rusiyanın prioritetlərinə uyğundur.***

Bu mənada Soçidə müəyyən sənədlərin imzalanması baş tuta bilər. Böyük Sülh Sazişinin imzalanmasına inanmıram. Bizim sülh müqaviləsinə baxışımızla, Ermənistanla Rusiyanın baxışları arasında ciddi fərq var. Biz bütün məsələlərin - sərhədlərin dəqiqləşdirilməsi, qarşılıqlı ərazi bütövlüyünün tanınması, kommunikasiyaların açılması, Xankəndi və ətrafında yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarının ölkəyə inteqrasiya prosesinin başladılması və s. məsələlərin bir müqavilədə həll edilməsini təklif etmişik. Ermənistan və Rusiya isə daha çox kommunikasiyaların açılmasında maraqlıdır. Xankəndidə yaşayan erməniəsilli Azərbaycan vətəndaşları ilə bağlı hansısa bir qərarın olmasını istəmirlər. Ermənistanla Rusiyanın baxışları bu yöndə üst-üstə düşdüyünə görə, Soçidə kommunikasiyaların açılması ilə bağlı qərar verilə bilər. Bu, Rusiyanın da maraqlarına uyğundur. Gürcüstandan asılı olmadan Ermənistana quru yol əldə edilə bilər. Ermənistan iqtisadi, logistik dalanda yerləşdiyi üçün bu yolun açılmasının onun üçün də əhəmiyyəti böyükdür. Bununla Ermənistana yeni nəfəs verilir. Sadəcə, burada bir önəmli məsələ var.

Biz bu kommunikasiya xəttinə "dəhliz" deyirik, Ermənistan isə "dəhliz" adının hüquqi statusda təsbit olunmasına qarşı çıxır. Bu məsələdə ciddi fikir ayrılıqları olacaq. O zaman Azərbaycan "Laçın dəhlizi" statusu ilə bağlı bəyanatda göstərilən maddəni ləğv etdirməlidir. Yaxud da Azərbaycan keçid məntəqələrinin dəhlizin əvvəlində yerləşdirilməsi ilə bağlı qərar qəbul olunmalıdır.

Sərhədlər müəyyənləşmədən Ermənistan üzərindən dəhlizin açılmasına yol vermək olmaz. Kommunikasiyaların açılması Azərbaycan üçün az əhəmiyyətə malikdir. Sülh sazişi imzalanmadan o addımlar atılarsa, Ermənistan və Rusiya sülh sazişinin bağlanmasını uzadacaq. Ən azı, böyük sülh sazişi olmasa belə, sərhədlərin dəqiqləşdirilməsi ilə bağlı məsələ paralel həll olunmalıdır.

### Natiq Miri, politoloq:

***- Soçi görüşünün Brüssel görüşündən əvvəl təşkil olunması göstərdi ki, Rusiya özünün moderatorluğu ilə təmin olunan atəşkəs və bu yöndə gedən geosiyasi maraqlarını hansısa güc mərkəzinə təslim etmək istəmir. Bu həm də Ermənistan hökumətinin başçısına verilən bir dərsdir. Hiss olunur ki, təcili qaydada hansısa dirijor çubuqları hərəkətə keçdi ki, Paşinyan Soçidə çağırılan görüşə razılıq verdi.***

Azərbaycan tərəfi konkret nəticələrə hesablanmış sülh danışıqlarında maraqlıdır. Bunun üçün də əsas məqsəd sərhədlərin müəyyənləşdirilməsidir. Bu prosesə demarkasiyadan başlanılmalıdır. Bu xətt müəyyən olunarsa, ən azı, "bizim torpaqlar Azərbaycan tərəfindən işğal olunur" bəhanəsi ilə hərbi təxribatlar törədən Ermənistanın qarşısı alınmış olar.

Sonrakı addım olan delimitasiya xeyli zaman aparacaq. Bu prosesdə xəritələrin müəyyən olunması və bu xəritələrdə coğrafi mövqelərin, şəhər və kəndlərin çox həssaslıqla qeyd olunması var. İlk növbədə bu məsələlərin razılaşdırılması və xəritələrin SSRi dövründə mövcud olan sənədlər üzrə götürülməsi razılaşdırılmalıdır. Bundan sonra kommunikasıyaların açılması məsələsi razılaşdırıla bilər. Bu məsələdə heç bir problem yoxdur. Problem odur ki, Ermənistan hökuməti hələ də Azərbaycanı Zəngəzur dəhlizi adı ilə birləşdirəcək yolun açılması məsələsini qəbul edə bilmir. Ermənistan iddia edir ki, 10 Noyabr bəyanatında hər hansı dəhliz məsələsi yoxdur.

Ermənistan hökumətinin bu riyakarlığı xalqa və revanşist qüvvələrə yönəlmiş bir açıqlamadır. 10 Noyabr bəyanatının 9-cu bəndində Laçın dəhlizi məsələsi necə qeyd olunubsa, Zəngəzurda kommunikasiyaların açılması məsələlərində də eyni cümlə və ifadələr işlənib. Laçın dəhlizində təhlükəsizliyi təmin edəcək yeganə qüvvə kimi Rusiya sülhməramlıları göstərilir. Sülhməramlı ifadəsi Zəngəzur dəhlizi ilə bağlı ona görə qeyd olunmayıb ki, Vətən Müharibəsi, atəşkəsin əldə olunması məsələləri birbaşa Qarabağa aiddir. Zəngəzur dəhlizi məsələsində "Rusiyanın sərhəd qoşunu" ifadəsi işlənib.

İstər avtomobil, istər dəmir yolu olsun, o, xarici qüvvə nəzarətindədirsə, artıq dəhliz statusundadır. Eyni zamanda, dəhliz üzərində Ermənistan tərəfindən gömrük və sərhəd məntəqələri yaradılacaqsa, eyni ifadə Laçın dəhlizinə də aid olunmalıdır. Əgər həmin dəhliz olmayacaqsa, onda Laçınla Ermənistan sərhədi bağlanacaq, Azərbaycan sərhəd və fitosanitar postu yaranacaq.

✍ **Tahirə**

# Vertolyot terrorunun gizlinləri

Müsahib

***Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində xalqımızın başına gətirilən ən ağır faciələrdən biri də 20 Noyabr vertolyot terroru oldu. 1991-ci il noyabrın 20-də sülh missiyası ilə uçan hava gəmisinin vurulması nəticəsində Azərbaycanın görkəmli dövlət xadimləri və ziyalıları şəhid oldu. Faciənin üzərindən 30 il ötməsinə rəğmən terroru törədənlər, onun təşkilatçıları cinayət məsuliyyətinə cəlb edilib cəzalandırılmayıb. Hadisənin detallarında hələ də bir sıra qaranlıq məqamlar var... 1990-1991-ci illərdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili İşlər İdarəsinin rəis müavini vəzifəsində çalışmış, istefada olan polis polkovniki Sadir Məmmədov hafta.az əməkdaşı ilə budəfəki söhbətində 20 Noyabr faciəsi ərəfəsində və sonra Xankəndidə, Ağdamda və faciə yerində şahidi olduğu bir sıra məqamlardan ətraflı bəhs etdi, terror olayı zamanı həlak olmuş dövlət xadimləri haqqında xatirələrindən danışdı...***

***- Sadir müəllim, artıq üzərindən 30 il ötən və görkəmli dövlət xadimləri və ziyalılarımızın şəhid olması ilə nəticələnən 20 Noyabr vertolyot faciəsi zamanı siz Xankəndidə mühüm vəzifələrdən birini daşıyırdınız. Həmin terror olayı baş verəndə isə Ağdamda dövlət rəhbərliyinin Qarabağdakı durumla bağlı keçirdiyi iclasda iştirak etmisiz. Rəhmətlik ovaxtkı Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Daxili İşlər naziri Məhəmməd Əsədov və digərlərini vertoloyotla Qarakəndə yola salanlardan biri də siz olmusuz. O müdhiş faciədən öncə nələr baş verdi, əsas hansı ciddi məqamlar yadınızda qalıb?***

- 20 Noyabr çox ağır bir faciə oldu Azərbaycan xalqı üçün... Öncə başda həmin terror hadisəsi nəticəsində həlak olanlarımızın ailələrinə, doğma və əzizləri olmaqla xalqımıza baş sağlığı diləyir, "Allah rəhmət eləsin" deyirəm... 30 il öncəki o dəhşətli gündən danışanda öncə şəhid Baş prokurorumuz İsmət Qayıbovu xatırlayıram...

...1991-ci il noyabrın 14-də erməni terrorçuları keçmiş Dağlıq Qarabağ Muxtar Vilayət Prokuronun müavini olan Şükür Rzayevi girov götürdülər. Onun xilası üçün çalışmağa başladıq. O vaxt rəsmən "Mardakert" adlanan keçmiş Ağdərə rayonunun prokuror köməkçisinin arvadı və oğlu ilə Şükür bəyin dəyişdirilməsinə razılaşdıq. Noyabrın 16-da Baş prokuror İsmət Qayıbov Ağdama gəldi və israr etdi ki, Şükür Rzayevi girovluqdan qurtarmaq əməliyyatına bilavasitə rəhbərlik etmək üçün Xankəndinə getmək istəyir. Mənə dedi ki, onu Xankəndinə aparım. Etiraz etdim ki, İsmət müəllim, mən sizi apara bilmərəm, vəziyyət o qədər qarışıqdır ki, hər şey ola bilər. Doğrudan da o vaxt erməni "boyevik"ləri Məhəmməd Əsədova və İsmət Qayıbova qarşı çox aqressiv idi. Onların da, mənim də başımıza pul qoyulmuşdu. Qayıbovu yola gətirə bilmədim. Dedi ki, yaxşı, sən pis vəziyyətdə qalmayasan deyə, kağız yazım qoyum, hər hansı hadisə baş versə, səni günahlandırmasınlar... Xülasə, onu vertolyotla Xocalıya, oradan isə komendantın maşını ilə Xankəndinə, sovet hərbçiləri olan yerə apardım... Rəhmətlik Qayıbov çox mərd adam idi, ermənilərlə danışıqlar zaman dedi ki, azərbaycanlılar heç vaxt qadını girov saxlamaz. Biz onu sizə veririk. Mən ayağına vurdum ki, bizi aldadırlar, belə etmə. İsmət müəllim dediyindən dönmədi və həmin gecə hərbçilər vasitəsilə erməni qadın və uşağı geri verdik. Təəssüf ki, dediyim kimi də oldu, ermənilər Şükür Rzayevi bizə qaytarmadılar. İsmət Qayıbova dedim ki, onlardan kişilik gözləməyə dəyməz, bizi aldatdılar. Bu vaxt noyabr ayının 18-də mənə məlumat gəldi ki, o vaxt "Martuni" adlanan indiki Xocavənd rayonunun Qaradağlı kəndinin camaatı amansızlıqla deportasiya olunub, hamısı Ağdamdadır. İsmət Qayıbova Ağdama getməli olduğumu dedim.

***- İsmət Qayıbov da sizinlə getdi Ağdama?***

- Xeyr, o ertəsi gün - 19 noyabr axşam saatlarında Ağdama gəldi. Mənimlə görüşəndə dedi ki, Bakıya getməliyəm. Az sonra məlum oldu ki, sabah, yəni 20 noyabr 1991-ci il tarixdə Bakıdan dövlət nümayəndə heyəti Ağdama gələcək. Ona görə də Qayıbov Ağdamda gecələməli oldu və qeyd etdi ki, elə həmin nümayəndə heyəti ilə Bakıya qayıdacaq ki, girov məsələsini həll etsin. Biz razılaşmışdıq ki, mən də onunla Bakıya gedim və dəyişdirilən erməniləri təyin olunan yerə gətirim. Ertəsi gün, yəni 20 noyabrda səhər saat 11 radələrində təyyarə Ağdamın hava limanına endi və dövlət katibi mərhum Tofiq İsmayılovun başçılıq etdiyi heyət o vaxt Ağdam Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri olan mərhum Xuraman Abbasovanın xidməti otağına yığıldı...

Tofiq İsmayılov bütün nümayəndə heyəti və təşkilat komitəsinin üzvlərinin müşavirədə iştirak etməsini tələb etdi. O, çox əsəbi halda Dağlıq Qarabağ Muxtar Vilayətinin komendatını soruşdu. O, iclasa gecikirdi. Təxminən, 15-20 dəqiqədən sonra vilayətin hərbi komendantı Jinkin Nikolay Vladimiroviç, Daxili İşlər İdarəsinin rəisi Kovolyov Vladimir Vladimiroviç, prokuror Plavski İqor Aleksandroviç və Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç otağa daxil oldu. Mərhum Tofiq İsmayılov çox emosional tərzdə azərbaycanlıların Qaradağlıdan necə köçürüldüyünü və qarşısının alınmamasının səbəbini soruşdu... O, gözlənilmədən Jinkin və Kovalyovu ayağa qaldıraraq dedi ki, bütün bu cür vəziyyətin yaranmasına siz şərait yaratmısınız, sizin və digər günahkarlar haqqında ciddi tədbir görüləcəkdir. Bu minvalla müşavirə saat 13:00-a qədər davam etdi və Tofiq İsmayılov qəflətən üzünü komendant Jinkinə tutaraq "Mən bu gün Qaradağlı camaatını öz evlərinə qaytarmalıyam, həmin kəndə getməliyik", - dedi. "Sizin hava nəqliyyatınız varmı?"- deyə soruşdu. Jinkin "Bəli, bir döyüş vertolyotum var", - cavabını verdi. Həmin vertolyotun yanacaq çəni tam doldurulanda 14 nəfər tuturdu. Bir anda mərhum Tofiq İsmayılov əlini masaya vuraraq "Getdik", - deyə ayağa qalxdı. Bütün nümayəndə heyəti onun arxasınca hava limanına yollandı. Vertolyota minik başlandı, mmən də minmişdim. Məhəmməd Əsədov pilotun adam sayının çox olmasıyla bağlı etirazını nəzərə alaraq vertolyotdan düşməyimi istədi. Nazirin məni düşürtdüyünə görə pərt oldum. Ən azından, bölgəni yaxşı bilən biri kimi bələdçilik edə bilərdim...

***- Sadir müəllim, şəhid dövlət katibi Tofiq İsmayılov başda olmaqla nümayəndə heyəti aeroporta yollananda Tamerlan Qarayev hansı səbəbdən qaldı Ağdamda, bilmədiniz ki?***

- Yadımdadır ki, Tofiq İsmayılov əlini masaya çırpıb "Getdik" dediyi vaxt Tamerlan müəllim nəsə yazırdı. Hamı ayağa qalxanda o da durub çıxmaq istədi. Tofiq müəllim ona dedi ki, sən bizimlə gəlmə, qal, verilmiş tapşırığı tamamla. Tamerlana verilmiş tapşırığın konkret nədən ibarət olduğunu bilmədim...

*Polyaniçko dedi ki, Şuşa kimdə olacaqsa, o udacaq...*





**Sadir Məmmədov,**
keçmiş DQMV-nin Daxili İşlər İdarəsinin rəis müavini istefada olan polis polkovniki

***- Sizin özünüzün də həmin vertolyota minməməyiniz haqqında müxtəlif fikirlər səslənir. Halbuki, bildiyimizə görə, siz Qaradağlı kəndi camaatını ermənilər tərəfindən qovulması ilə bağlı yaradılmış komissiyanın sədr müavini olmusunuz?***

- Bəli, doğrudur, dediyiniz məqsədlə yaradılmış komissiyanın sədri rəhmətlik Zülfü Hacıyev, müavinləri isə mərhum Qurban Namazəliyev və mən idik. Aeroprta getdiyimiz vaxt sürücüm nədənsə ləngidi və mən vertolyotun yanına çatanda artıq şəhid generalımız Məhəmməd Əsədov sonuncu adamları yerləşdirirdi. Məni görən kimi qolumdan yapışdı ki, Sadir, sən qal, onsuz da yer yoxdur. Gerçəkdən eşitdim ki, komandir-pilot Kotov və heyət üzvü Domov vertolyotun 14 nəfər üçün nəzərdə tutulduğu, lakin sərnişinlərin sayının həddindən artıq çox olmasından gileylənirdilər. Məhəmməd müəllimin göstərişindən sonra mən geri qayıdanda rəhmətlik İsmət müəllim qaça-qaça gəlirdi və məni görəndə dedi ki, Sadir, hara gedirsən, gəl görək. Mən rəhmətliyə izah etdim ki, Məhəmməd Əsədov getməyimi məsləhət görmədi. O isə "Yaxşı, qal. Biz də tez qayıdacağıq, axşam birlikdə Bakıya uçub danışdığımız məsələni həll edərik...".

***- Vertolyot havaya qalxandan sonra siz hara getdiniz və faciə haqda nə vaxt və kimdən xəbər tutdunuz?***

- Yadımdadır ki, vertolyot havaya qalxanda artıq saat 13:48 idi. Özü də həmin günü səma çox təmiz, günəş parlaq idi. Hətta Qarabağın uzaqda görünən dağ yamacları açıq-aydın görünürdü. Vertolyot uzaqlaşandan sonra biz şəhərə qayıtdıq. İki saata yaxın vaxt keçdi. Rəhmətlik Xuraman Abbasova bərk narahat idi və tez-tez məndən "Bəs vertolyot niyə qayıtmadı, Sadir"- deyə soruşurdu. Özü də rəhmətlik nümayəndə heyəti üçün süfrə-filan hazırlatmışdı.

Saat 16 radələri idi. Mən Xuraman xanımla Ağdam rayon partiya komitəsi binasının qarşısında dayanmışdıq. Elə bu vaxt vilayət hərbi komendantı V.İ. Kuşnarikin Vidadi adlı sürücüsü məni kənara çəkib dedi ki, Kuşnarik ratsiya ilə hərbi hissəyə təcili tapşırıq yollayıb. Tapşırıq verib ki, Sadir Məmmədova deyin ki, bütün "təcili yardım" maşınlarını Martuni (yəni Mərziliyə) postuna yığsın. Deyəsən, nümayəndə heyəti gedən vertolyot vurulub...

***- Siz hadisə yerində ola bildinizmi?***

- Bəli. Xəbəri eşidəndən dərhal sonra mən həmkarım mərhum Mehman Nəzər oğlu Hüseynovla Ağdam Rayon Polis şöbəsinə gələrək Daxili İşlər Nazirliyinin növbətçi hissəsinə, Kərim adlı (hazırda xidmət edir) növbətçiyə məlumat verdim ki, ermənilər nümayəndə heyəti ilə Xocavəndə uçan vertolyotu vurublar. Mən hadisə yerinə gedirəm. Təkrar olaraq ratsiya ilə Ağsu dolamasındakı növbətçi avtomobil müfəttişliyinin postuna da eyni qaydada məlumat verdim.

...Biz Mehman Hüseynovla Mərzili postuna çatanda artıq qaranlıq idi. Hərbçilər ratsiya vasitəsilə məni Kuşnariklə bağladılar, o dedi ki, heç kim sağ qalmayıb, vertolyot parçalanıb, güclü alov var. Təkid etdim ki, mütləq hadisə yerinə baxmalıyam. Onun göstərişi ilə 2 nəfər əsgər bizim avtomobilə əyləşdi və avtomobilin işığı sönülü vəziyyətdə alova tərəf getdik. Bir neçə yerdə parça-parça alov yanırdı. Sanki zülmət gecədə bütün dağ yanırdı. Bizi qarşılayan Kuşnarik "onsuz da vertolyota yaxın düşmək mümkün deyil və bir nəfərin da sağ qalmaq ehtimalı yoxdur"- dedi. O, hadisə yerinə dairəvi post qoymuşdu... Biz geri -Ağdama qayıtmalı olduq və ertəsi gün səhər saatlarında Bakıdan Azərbaycanın keçmiş 2-ci katibi V.Polyaniçko başda olmaqla prokurorluq əməkdaşları, jurnalistlər gəldi. Biz onlarla bir yerdə bilavasitə hadisə yerində olduq...

***- Son illər müxtəlif qəzet və internet materiallarında belə bir versiya səslənir ki, guya Azərbaycanın istintaq qrupu faciə yerinə gələnədək vertolyotun dağıntıları arasında qalmış müəyyən əşyalar qarət edilib. Məsələn, deyilənə görə, Məhəmməd Əsədovun, İsmət Qayıbovun üzərlərindəki tabel silahları, telejurnalist Alı Mustafayevin video-kamerasının qalıqları da tapılmayıb...***

- Bilirsiniz, o günün gərginliyini təsəvvür etmək çox çətindir. Başım əsasən cəsədlərin toplanmasını təşkil etməyə qarışmışdı... Bu məsələləri prokurorluğun ekspertləri, eləcə də o zaman istintaq qrupunun rəhbəri olmuş Adil Ağayev dəqiq bilər....

***- Bir yaddaşınızı eşələyin, bəlkə rəhmətliklərdən kiməsə məxsus hansısa əşya gözünüzə sataşıb?..***

- Elə bir şey görmədim. Yadımdadır ki, deyəsən, rəhmətlik Alı Mustafayevin yanındakı videokameranın futlyarı boş idi. Onu dəqiq deyə bilmərəm ki, kamera yanıb, vertolyot yerə düşəndə kənara atılıb, yoxsa... Ancaq belə bir epizod yadımda qalıb...

***- Dediniz ki, Qarabağdakı Təşkilat Komitəsinin sədri olmuş Azərbaycanın keçmiş 2-ci katibi V.Polyaniçko da sizinlə bərabər faciə yerində oldu. Onunla faciə barədə söhbətiniz oldumu? Axı Polyaniçko Kremlin ən məlumatlı adamlarından biri idi...***

- Polyaniçko haqqında müxtəlif ziddiyyətli fikirlər səslənir, amma onu daim erməni separatçı və yaraqlılarına qarşı mübarizə aparan əqidəli sovet məmuru kimi görmüşdüm. Ermənilər onun özünə neçə dəfə qəsd etmişdilər. Bu barədə ayrıca geniş danışarıq.

Vertolyot faciəsi vaxtı öncə dediyim kimi, Polyaniçko ertəsi gün noyabrın 21-də bizimlə bərabər faciə yerində oldu. Yadımdadır ki, o, bir az yuxarıda təpədə dayanıb tüstülənən vertolyot dağıntısına baxırdı. Onun fikrini öyrənmək üçün yaxınlaşıb soruşdum: "Viktor Petroviç, bundan sonra nə olacaq?". Polyaniçko təmkinlə cavab verdi: "Nə olacaq? İndi yalnız Şuşa qalır. Şuşa kimdə olacaqsa, o udacaq. Sizin xalq niyə yatır?!".

***- Birinci Qarabağ savaşı zamanı "Ala Yaqub", yaxud "Qatır Məmməd" ləqəbi ilə tanınan "Qarabağ şahinləri" könüllü taborunun komandiri Yaqub Rzayevi tanıyırdınızmı?***

- Əlbəttə, tanıyırdım. Müharibədən əvvəl o, Ağdamda qəbir daşları düzəltməklə məşğul idi...

***- Bildiyiniz kimi, onillərdir ki, Azərbaycan siyasi meydanında tanınmış bir neçə şəxs vertolyotun guya Tamerlan Qarayevin göstərişi ilə "erməni vertolyotu" adı ilə məhz "Ala Yaqub" tərəfindən vurulduğunu iddia edir. Bu barədə nə deyə bilərsiniz?***

- Əvvəla, Tamerlan Qarayevin həmin prosesdə iştirakı haqqında söz-söhbəti növbəti cəfəngiyat, kimlərinsə qərəzli, məqsədyönlü uydurması hesab edirəm. İkincisi, mərhum Yaqub Rzayev həmin vertolyotu haradan vura bilərdi? Yazığı o vaxt da incitdilər, indi də ruhunu incidirlər. Tamamilə ağ yalan, qurama, ağlasığmaz söhbətdir. Yaqubun dəstələrinin yerləşdiyi məkan Qarakənddən çox uzaqda, Ağdamın yaxınlığındakı, Əsgəran yolundakı Qarağacı qəbiristanlığının yanında idi. Vertolyot isə 18-20 km aralıda Xocavənd ərazisində vurulub...

***- Yaqub Rzayevin həmin istiqamətdə başqa dəstəsi var idimi?***

- Xeyr. O tərəflərdə Yaqubun heç bir dəstəsi yox idi. Qarakəndə Ağdamın ən yaxın kəndi Mərzili idi. Yolla gedəndə Mərzili solda qalırdı, irəli dağın döşü ilə Xocavəndin məşhur Çartaz kəndi istiqamətində 7-8 km getməli idin ki, Qarakəndə çıxasan... Bir daha deyirəm, Yaqub istəsə belə, həmin vertolyotu deyilən yerdə vura bilməzdi...

***- Yadınızdadırsa, ilk dəfə Azərbaycanın rəsmi xəbərlərində də dedilər ki, guya vertolyot dumanlı havada dağa dəyib?..***

- Bəli, yadımdadır. O da çox güman ki, ermənilər tərəfindən izi azdırmaq üçün qəsdən yayılmış informasiyaya əsaslanırdı. Əvvəlcə dediyim kimi, noyabrın 20-si saat 16:00 radələrində DİN-ə məlumat vermişəm ki, vertolyot vurulub. Həmin telefon danışığının yazısı da, çox güman ki, DİN-in növbətçi hissəsinin arxivində saxlanılır...

Nə isə. Bütün hallarda ortalıqda bir gerçəklik var. Qəhrəman dövlət xadimlərimiz, ziyalılarımız şəhid edildilər həmin vertolyotda. Rəhmətlik Tofiq müəllim, İsmət müəllim, Məhəmməd Əsədov...

İsmət müəllim haqqında xeyli danışdıq. Rəhmətlik prokuror kimi erməni yaraqlılarına, terrorçularına qan uddururdu. General Məhəmməd Əsədov da Qarabağdakı erməni terrorçu bazalarının axırına çıxmaqdaydı. Rəhmətlik "OMON"u bu işdən ötrü yaratmışdı. Buna Moskvadan icazə almaq üçün nə qədər əziyyət çəkdi. Rəhmətliklə çox ünsiyyətimiz olub. Qarabağ ərazisindəki çox işləri mənə tapşırırdı. O qədər zəhmli, şəxsiyyətli bir general idi ki, mən Xankəndidə, Ağdamda kabinetdə oturub işləyəndə elə bilirdim, Məhəmməd Əsədov başımın üstündə dayanıb...

Yeri gəlmişkən, keçən 30 il ərzində 20 Noyabr vertolyot faciəsi ilə bağlı kim necə gəldi danışır və media da beləleri üçün meydana çevrilir. Bir çoxları şəxsi, qərəzli məqsədlər güdərək ayrı-ayrı tanınmış şəxsləri ləkələməyə çalışırlar. Xahiş edirəm, təvəqqe edirəm ki, kimsə özünü reklam etmək xatirinə 20 Noyabrdan danışır, yazırsa, ehtiyatlı olsun. Söhbət həm də o faciədə həlak olmuş neçə-neçə insanın ailələrindən, övladlarından, doğmalarından gedir. Vertolyot faciəsinin KİV-də qeyri-peşəkar müzakirəsi həlak olanların ruhuna saygısızlıq, onların əzizlərinin, qohum-əqrəbalarının onsuz da unudulmayan dərdlərinin, qaysaq bağlamış yaralarının qoparılmasından başqa bir şey deyil.

Bir daha Qarabağ savaşlarındakı bütün şəhidlərimiz kimi 20 Noyabr şəhidlərinə də Allahdan rəhmət diləyirəm...

***Sultan Laçın***

# Terrorçuların adına məktəblər

**44 günlük müharibədə düşmənə sarsıdıcı zərbə vurub ərazi bütövlüyümüzü bərpa etsək də, rus sülhməramlıların nəzarətində olan bölgələrdə separatçı rejimin fəaliyyətini davam etdirməsi cəmiyyətimizdə birmənalı qarşılanmır.**

Üstəlik, Xankəndi, Ağdərə, Xocalı, Xocavəndin bir çox kəndlərində yaradılmış erməni məktəbləri, «mədəniyyət ocaq»ları əlləri dinc azərbaycanlıların qanına batmış, faşist ideologiyasının daşıyıcıları kimi ad çıxarmış Monte Melkonyan, Njde və digər erməni terrorçuların adlarınadır.

Burada təhsil alan erməni uşaqlar isə bu terrorçuların «qəhrəman obrazı», Azərbaycana qarşı düşmən ruhunda tərbiyə edilməklə zəhərlənirlər. Hansı ki, bu amil bölgəyə gələn rus sülhməramlırlarının sözdə bəyan etdikləri firavan birgəyaşayışın təmini prinsipi ilə daban-dabana ziddir.



**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Sülhməramlılardan söz düşmüşkən, mətbuatda hər həftə onların Qarabağ ermənilərinə humanitar yardım verdikləri, məktəblərdə yardımlar payladıqlarına dair məlumatlar görürük. Özü də bu tədbirlər yuxarıda adları çəkilən terrorçuların adlarının, heykəllərinin əks olunduğu məktəblərdə, məkanlarda təşkil edilir. Lakin rus sülhməramlılarının komandanlığı tərəfindən hansısa bir addım atılmır, bizim etiraz reaksiyalarımız səssiz qarşılanır.

■ **Milli Məclisin deputatı Asim Mollazadə hafta.az-a bildirib ki, sülhməramlıların ermənilərə humanitar yardımlar göstərməsinin arxasında bir məqsəd dayanır.**

"Ermənilər Qarabağı kütləvi şəkildə tərk edirlər. Əgər Qarabağda erməni qalmasa, o zaman Rusiya sülhməramlılarına ehtiyac olmayacaq. Rusiya sülhməramlıları ermənilərin Qarabğda rahat yaşayışını təmin etmək üçün onlara evlər, məktəblər tikirlər. Bu, sülhməramlıların bölgədə öz mövcudluqlarını saxlamaq istəyi ilə bağlıdır".

A.Mollazadə Qarabağda tikilən məktəblərə erməni faşist terrorçularının adının verilməsini və sülməramlıların da həmin yerləri ziyarət etməsini bölgədə və Rusiyada həyata keçirilən qəribə, qeyri-müəyyən addımlar sırasına daxil edib. Deputat sülhməramlıların bu fonda rusların faşist Qarigen Njdeyə qoyduğu abidəyə diqqət çəkib. Onun sözlərinə görə, məşhur Qaragin Njde "SS"in nümayəndəsi olub və "SS!" Nürinberq məhkəməsinin qərarı ilə faşizmi təmsil edən bu adamların təbliğini tam qadağa edilib.

*belə hallar ilk növbədə media vasitəsi ilə Rusiya vətəndaşlarına çatdırılmalı və Rusiyanın öz qanunlarına zidd hərəkət edərək "SS"ə verdiyi dəstək ictimaiyyət tərəfindən tənqid olunmalıdır*

"Rusiyada faşizmə dəstək qanunvericilikdə qadağan edilib. Bu ərazidə faşist komandirinin heykəllərini saxlamaqla özü -özlüyündə ruslara təhqirdir, Rusiya qanunvericiliyinə ziddir". A.Mollazadə hesab edir ki, Qarabağda erməni terorçularının adı ilə bağlı məktəblərin açılmasına icazə verən sülhməramlılara bu mənada veriləcək suallar çoxdur. Onun sözlərinə görə, belə hallar ilk növbədə media vasitəsi ilə Rusiya vətəndaşlarına çatdırılmalı və Rusiyanın öz qanunlarına zidd hərəkət edərək "SS"ə verdiyi dəstək ictimaiyyət tərəfindən tənqid olunmalıdır. Deputat hesab edir ki, sülhməramlıların nəzarətində olan ərazilərdə baş verən bu cür xoş olmayan məsələlərin, ərazilərdə Azərbaycan qanunları işləyəndən sonra heç bir əhəmiyyəti qalmayacaq. Azərbaycan bu özbaşınalığa da son qoyacaq.

***Tahirə***

# Bəsitçay Dövlət Təbiət Qoruğu bərpa olunur

## Layihə

***Bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar uğurla yerinə yetirilir. Qeyd edək ki, bu gün Azərbaycan hökuməti üçün həm də işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası prioritet məsələlərdəndir. Böyük Qayıdışın tərkib hissələrindən biri də məhz oradakı ekoloji mühitin bərpa edilməsidir. Hazırda işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işləri ilə yanaşı, ekologiyanın sağlamlaşdırılması istiqamətində də ciddi tədbirlər görülməkdədir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Ötən ay Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması məqsədilə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində 107 hektar sahədə yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa edilir.

Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Qoruğun Əsasnaməsini və sanitariya-mühafizə zonasını dörd ay müddətində müəyyənləşdirib təsdiqləmək, Qoruğun mühafizəsi, təbliği və fəaliyyətinin maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görmək və Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə Qoruq ərazisində yerləşən təbiət obyektlərinin inventarlaşdırılmasını, həmçinin xarici və yerli mütəxəssisləri cəlb etməklə ekoloji vəziyyətin qiymətləndirilməsini aparmalıdır.

Məlumat üçün xatırladaq ki, Bəsitçay Dövlət Təbiət Qoruğu Azərbaycan Hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Zəngilan rayonunda yaradılıb. Qoruq Azərbaycanın cənubqərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Qoruq ərazisinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilib. Qoruğun adı dərəsində yerləşdiyi çayın adı ilə bağlıdır. Bəsitçayın adı isə monqol mənşəli olub, beysut tayfasının adını daşıyır. Görünür, həmin regionda vaxtilə beysut tayfası məskunlaşmışdır.

Bəsitçay respublika qoruqlarının ən kiçiyidir. Onun sahəsi 107 hektardır.

Meşə ilə örtülü sahənin əsas ağac cinsi Şərq çinarıdır. Burada əsasən bir meşə tipimüxtəlif otlu çinar meşələri formalaşmışdır. Qoruğun yerləşdiyi ərazi əsasən dağlıq olub, dəniz səviyyəsindən hündürlüyü 600-800 m.-ə qədərdir. Sağ sahil dikyamaclı dağlardan, sol sahil isə təpəliklərdən ibarətdir. Əsasən üçüncü dövr çöküntüləri yayılıb. Çay dərəsi boyunca ensiz allüvial düzənlik uzanır. Buradakı dağlar Bəsitçayın qolları ilə xeyli parçalanmışdır.

> *Bəzən görürük ki, xüsusi mühafizə olunan ərazilərə, milli parklara həmin ərazilərin landşaftına uyğun olmayan ağaclar əkilir*



**Elman Yusifov,**
"Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq

Qoruq ərazisi qışı quraq keçən mülayimisti iqlim tipinə aiddir. Yayının isti olması səciyyəvidir. Havanın orta illik temperaturu 130-dir. İllik yağıntının miqdarı 600 mm-dir. Ərazinin iqlim şəraiti çinar meşəliyinin təbii bərpası və inkişafı üçün çox əlverişlidir.

Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində əsasən allüvial-meşə torpaqları yayılıb. Çay dərələrinin yamaclarında, qoruğun ətraf sahələrində qəhvəyi dağ-meşə torpaqları inkişaf edib. Çayın yatağı boyu və kiçik terraslarda inkişaf etmiş allüvial torpaqlar əsasən çinar meşələri altındadır. Burada daşlı-çınqıllı ərazilər də müəyyən sahəni tutur. Bunların hamısında çinar bitir və inkişaf edir. O, torpağa tələbkar deyil. Çinar meşələri gilliçəli, yaxşı su-fiziki xassəli və münbit torpaqlarda yüksək məhsuldarlığa və bonitetə malikdir.

Dünyada çinarın 7 növü vardır. Azərbaycanda isə onun yalnız bir növü - Şərq çinarı inkişaf edir. Şərq çinarının çoxsaheli əhəmiyyətini, dünyada az yayılmasını, nadir bitki olmasını və son əsrlərdə xeyli azalmasını nəzərə alaraq, onun adı Azərbaycanın «Qırmızı Kitabı»na salınıb.

Bəsitçay Dövlət Təbiət Qoruğunun 100 hektarını çinar meşələri tutur. Onlar Bəsitçayın və onun qolu Şıxauzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılmışdır. Qarışıq çinarlıqlarda qoz, dağdağan, tut, söyüd, qovaq, və s. ağac, yemişan, itburnu, murdarça, qaratikan, və s. kollar inkişaf edir. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə 1 m.-dir. Qoruğun ətraf sahələrində, bəzən də özündə canavar, çöl donuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmiricilər və s.məməlilərə, kəklik, turac, göyərçin və s. quşlara rast gəlinir.

Qeyd etmək lazımdır ki, 30 ilə yaxın müddət ərzində erməni təcavüzkarlarının nəzarətində olan Şərq çinarlarının qorunduğu Bəsitçay Dövlət Təbiət Qoruğuna işğaldan müddətində düşmən ciddi ziyan vurub. Qoruğun mövcud vəziyyətinin qiymətləndirilməsi üçün işğaldan azad olunmuş ərazilərə ezam olunmuş monitorinq qrupunun verdiyi məlumatlara əsasən qoruğa aid olan 85 hektar meşə ilə örtülü sahəsinin 42 hektardan çox hissəsinin tamamilə məhv edilib. Çoxyaşlı qiymətli Şərq çinarı ağacları kəsilib, köklərinin itirilməsi üçün müxtəlif partladıcı maddələrdən istifadə edilib, ərazidə yanğınlar törədilib və qoruğun inzibati binası dağıdılıb.

Ümumilikdə isə işğal dövründə Azərbaycanın 100 min ha ərazisi yanğına məruz qalıb. Yanğın nəticəsində orada olan bitki, fauna və flora tamamilə məhv olub. Proqnozlara görə, həmin ərazilərdə təbiətin yenidən bərpa olunması üçün uzun illər lazım olacaq.

Orada aparılan monitorinqin ilkin nəticələri Baş Prokurorluğa təqdim olunub. Bununla bağlı cinayət işi açılacaq. Ermənistan törətdiyi vəhşiliklərə görə beynəlxalq hüquqi müstəvidə cavab verməli olacaq.

### Ekspert rəyi...

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən "Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq Elman Yusifov deyib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə ekosistemin bərpası istiqamətində ciddi işlər görülür. Mütəxəssis hesab edir ki, ən yaxşı mühafizə təbiətə çox da müdaxilə etməməkdir:**

"Ən yaxşısı o ərazilərə ciddi müdaxilə edilməsin. Bəzən görürük ki, xüsusi mühafizə olunan ərazilərə, milli parklara həmin ərazilərin landşaftına uyğun olmayan ağaclar əkilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyində bu məsələ nəzarətə alınıb. Bəsitçay Dövlət Qoruğuna gəlincə isə bu ərazi təbii çinar meşəsinin mühafizəsi məqsədilə yaradılmışdı. Bu qoruğun davamı da Qərbi Zəngəzura qədər uzanır. Çox güman, işğal dövründə orada torpaqlar eroziyaya məruz qalıb, ağaclar qırılıb. Həmin ərazilərdə meşə təsərrüfatı işləri aparılmalıdır. Ən yaxşısı təbiətin özü-özünü bərpasına şərait yaradılmalıdır. Əgər qoruğun ətrafı çəpərlənsə, mal-qara otarılmasa, brakonyerlər, "iş adamları" əraziyə buraxılmasa, istər meşə, istərsə də su ekosistemi özü-özünü bərpa edir. Məsələn, Bəsitçay Qoruğunda əsasən, Şərq çinarlarıdır və çinar da sürətlə böyüyən bitkidir. Ona qulluq olanda, hətta il ərzində 1,5 metrə qədər böyüyə bilir. Amma götürsək, erməniləri həmin ərazilərdə qırdıqları palıd növlərini, onların bərpası ciddi problemdir. Palıd 5-7 il ancaq kökə güc verir, onun yerüstü inkişafı dayanır, kök sistemi inkişaf edir. Bu müddətdə digər ağaclar artıq böyüyürlər, ətrafa kölgə salırlar, nəticədə palıd pöhrələrinin inkişafı ləngiyir.

Bu baxımdan Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpasında problem olmayacaq. Biz əsas problemi Laçın, Kəlbəcər istiqamətində meşələrin bərpasında yaşaya bilərik. Həmin ərazilərdə palıd ağacları kütləvi şəkildə qırılıb. Ermənilər işğal dövründə Qarabağdakı qırmızı palıd ağaclarını kütləvi şəkildə kəsərək çaxır saxlamaq üçün çəllək hazırlayırdılar. Bu da istehsalçı şirkət mətbuatda reklam edirdi ki, məhsulları qırmızı palıd ağacından hazırlanan çəlləklərdə saxlanılıb. Bu o deməkdir ki, bizim həmin əraziləri bərpa etməyimizə uzun illər lazım olacaq".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Erməni hərbi hücumları müharibə cinayətidir

***Ermənistanın Azərbaycan sərhədində və Qarabağda postlarımıza etdiyi silahlı hücumlar, son verdiyimiz 7 şəhid hadisəsində əsir götürülən erməni hərbçilərinin aqibəti erməni tərəfdaşlarını, eləcə də rus sülhməramlılarını narahat edən faktor kimi müzakirə olunur.* Məlumdur ki, erməni hərbi cinayətkarlarının təhvil verilməsi məsələsi hadisələrindən dərhal sonra qaldırıldı.**

> *Biz beynəlxalq qanunun tələbindən istifadə edərək terorçunu istəyə bilərik*



Rusiya sülhməramlılarının keçmiş komandanı Rüstəm Muradov dövriyyəyə çıxarılmaqla Ermənistana bir cənazə apardı və xəbərlərdə deyildiyi kimi, onun əsirlərin də qaytarılması ilə bağlı bir missiyası da var. Erməni əsirlərin qaytarılmasının hazırkı şəraitdə nə dərəcədə reallaşacağı birmənalı qarşılanmır. Maraqlıdır, atəşkəs dövründə hərbi hücumlarda iştirak edən həmin erməni cinayətkarları hansı qanunla, hansı adla və necə mühakimə olunmalıdır? Hərbi əsir, hərbi cinayətkar olan ermənilərin geri verilməsi necə reallaşa bilər?

**■ Hüquqşünas Əlövsət Abdullayev hafta.az-a bildirib ki, əsirlərə bağlı məsələyə iki aspektdən baxılmalıdır.** Əgər hərbi əsirin əməlində müharibə, soyqırım cinayətlərinin tərkibi varsa, o sözsüz mühakimə olunmalıdır. Onun harasa təhvil verilməsindən söhbət gedə bilməz. Həmin əsirləri Azərbaycan özü mühakimə etməlidir. Yaxud beynəlxalq səviyyədə mühakiməyə çıxarıla bilər.

"Əgər əsirlərin əməlində cinayət tərkibi yoxdursa, beynəlxalq konvensiyalara uyğun olaraq hərbi əsirlərin dəyişdirilməsi məsələsi tətbiq oluna bilər. Cenevrə konvensiyalarına görə, əsirlərlə normal davranmalı, əsirlər işgəncələrə məruz qalmamalıdır. Sadəcə statusu onu hərbi əsir səviyyəsinə gətirib çıxarır. Bu gün Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə hərbi əsirlər dəyişdirilir. Hər bir tərəf normal şəkildə zamanında əsirlərin dəyişdirilməsini həyata keçirə bilər. Hərbi əsirləri saxlamaq dövlət üçün o qədər də əhəmiyyətli deyil".

Ə.Abdullayev məsələyə sərhəddə baş verən son hərbi toqquşmalarda verdiyimiz itkilər kontekstindən yanaşaraq, həbs olunan hərbçilərin əməlinin araşdırılmalı olduğunu önə çəkib. Hüquqşünas regionda baş verən hərbi toqquşmalar fonunda beynəlxalq hüquq kontekstində maraqlı nüanslarin üzə çıxdığını önə çəkib.

"Atəşkəsin əldə olunması ilə bağlı bəyanat olsa da, biz hesab etmişik ki, müharibə bitib. Ermənilər tərəfindən hücum olur və biz onlara adekvat cavab veririk. Belə olan halda da artıq döyüş hər iki tərəf arasında gedir.

Biz burada hansısa terrordan danışa bilmirik. Silahlı qüvvələrin atışması baş verir. Beynəlxalq hüquq normalarına görə, silahlı qüvvələr toqquşursa tərəflərin birinin digərini öldürməyə icazəsi var. Əgər qarşı tərəfin öldürdüyü mülki şəxs olsaydı, onda bu, müharibə cinayəti olardı. Amma hərbi qulluqçuların bir-birini öldürməsi müharibə cinayəti sayılmır. Beynəlxalq hüquq norması buna icazə verir ki, əlinə silah alıb döyüşən hərbi qulluqçunun öldürülməsi mümkündür və hədəfdir. Bu baxımdan biz onları ittiham edə bilmirik ki, sən bizim hərbi qulluqçunu öldürmüsən. Sadəcə olaraq atəşkəs şəraitində baş verən bu hərbi toqquşmaya ad verməkdə çox çətindir. Bu müharibədirmi, müharibə deyilmi? Üçtərəfli bəyanat olub, amma ərazidə atışma gedir. Bunun adı nədir? Hadisəni bir çox hallarda terror da adlandırırlar. Mən bununla razılaşmıram.

Terror daha yumşaq hadisə əməlidir. Bununla ən ağır hadisəni daha yumşaq formada təqdim edirik. Terror bir siyasi təşkilat tərəfindən həyata keçirilir. Bu dövlət səviyyəsində həyata keçirilən dövlətin silahlı qüvvələrinin yönəldiyi bir cinayət hadisəsidir. Tutaq ki, Şuşada posta qumbara atan erməninin hərəkəti terror hadisəsi ola bilər. Dünyada 30-40 erməni terror təşkilatı var. Bu həmin terror təşkilatının hazırladığı bir hadisə ola bilər".

Ə.Abdullayev sülhməramlıların erməni terrorçusunun erməni separatçılara verməsini kökündən yanlış sayıb, heç bir qanuna sığmadığını deyib. O, burada yenə də yanlış siyasətinin dayandığını qeyd edib. Hüquqşünas hesab edir ki, beynəlxalq qanunun tələbindən istifadə edərək biz terorçunu istəyə bilərik.

"Biz Rusiyaya müraciət eləməliyik. Terrorçu bizə təhvil verilməlidir. Yenə də Rusiyanın üzərinə gəlirik. Hadisə Azərbaycan ərazisində baş vermişdi və terrorçunu mühakimə etməliyidik. Amma vermədilər. Razıyıq, sülhməramlı aparsın terrorçunu Rusiyada mühakimə etsin. "Mühakimə edəcəkmi?" - məsələ budur. Belə bir hadisə olarsa, Azərbaycan tərəfi məlumatlandırılmalıdır". Hüquqşünas erməni əsirlərin hansı maddələrlə cinayət məsuliyyətinə alınacaqlarının araşdırmalardan sonra müəyyən olunacağını bildirib. Ə.Abdullayev hələlik əsirlərin hansı maddə ilə mühakimə olunacağı barədə məlumatı olmadığını deyib.

"Biz desək ki, həmin əsirlər Azərbaycan qanunvericiliyinə, müharibə cinayətlərinə görə mühakimə ediləcəklər, "Necə olacaq?" - sualı yaranacaq. Beynəlxalq hüquqda atəşkəs imzalanandan sonra baş verən hərbi hücum və hərbi toqquşmaların, əsirlərin hansı adda cinayətə cəlb olunması barədə heç nə yoxdur. Ola bilər ki, bunu terror əməli kimi dəyərləndirsinlər, amma terror daha yumşaq formadır".

✍ **Tahirə**

## XƏBƏRİNİZ OLSUN...




■ "Şuşa TÜRKSOY-un mədəniyyət paytaxtı olacaq". Bunu "Böyük Qayıdış: Mədəniyyətin dirçəlişi" konfransında çıxışı zamanı mədəniyyət naziri Anar Kərimov deyib. "Əslində, bu xəbər TÜRKSOY toplantısında elan ediləcək. Ancaq mən xəbəri qabaqlayaraq demək istəyirəm ki, Şuşa 2023-cu ildə TÜRKSOY-un mədəniyyət paytaxtı elan ediləcək. Bütün türkdilli qardaşlarımızın iştiraki ilə tədbirlər keçiriləcək", -deyə o vurğulayıb.

■ Azərbaycanın tanınmış neyrocərrahı, hərbi həkim Azər Əkbərov vəfat edib. Bu barədə onun yaxınları sosial şəbəkədə məlumat yayıb. Bildirilib ki, həkim uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkib. Qeyd edək ki, A. Əkbərov 44 günlük Vətən müharibəsində hərbi həkim kimi fəaliyyət göstərib.

■ Gəncədə ölümlə nəticələn ağır yol qəzası baş verib. Hadisə şəhərin Müseyib Bağırov küçəsində qeydə alınıb. Avtomobil Mühafizə Polisinə məxsusdur, hadisə xidmət vaxtı baş verib. Fakta bağlı araşdırmalara başlanılıb. Qeyd edək ki, faciəli şəkildə həyatını itirən Renat Əliyev pauerliftinq idman növü ilə peşəkar məşğul olub, Azərbaycan çempionu adını qazanıb.



■ "Bakı Dövlət Universitetinə (BDU) yeni yataqxanalar tikiləcək". Bunu BDU rektoru Elçin Babayev bildirib. Onun sözlərinə görə, Universitetin 225 nəfərlik yataqxanası da əsaslı təmir olunub: "Tələbələr yataqxanada lazımi avadanlıqlarla təmin olunublar. Əvvəl tələbə şəhərciyində xoşagəlməz vəziyyət var idi. Ancaq artıq həmin şəhərcik hasarlanıb, xüsusi mühafizə altındadır və kənar şəxslərin girişi mümkün deyil".

■ Avstraliya hökuməti "Hizbullah"ı və "The Base" neonasist qrupunu terror təşkilatlarının siyahısına əlavə edib. Bu barədə ölkənin daxili işlər naziri Karen Endryu bildirib. Onun sözlərinə görə, Avstraliyada dini və ya ideoloji olmasından asılı olmayaraq, zorakı ekstremizmə yer yoxdur və insanların qətlə yetirilməsinə bunların hər hansı biri ilə bəraət qazandırmaq mümkün deyil.



■ 15 ildə ali məktəblərə qəbulda texniki ixtisasları seçən qızların sayı kifayət qədər artıb. Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib: "Peşə imkanları olmayanların çoxu erkən nikahın qurbanı olur, öz haqlarını müdafiə etmir, onlara qarşı kobud rəftara dözməli olurlar. Bəzi regionlarda 9-cu sinif buraxılış imtahanlarından sonra orta təhsildə qızların sayında kəskin azalma olur. Bu da erkən nikah və ya qızların təhsildən uzaq tutulması tendensiyalarından xəbər verir".

■ Avropa Komissiyası pandemiya dövründə tətbiq edilmiş müəssisələrə yardım rejimi ləğv edib. Avropa İttifaqına üzv ölkələr 2022-ci ilin iyununadək dotasiyaları dayandırmalı, mərhələli şəkildə rəqabət qaydalarını tətbiq etməlidir. Bununla belə, komissiya üzv ölkələrə rəqabət qanunvericiliyində dəyişiklik edərək yarımkeçiricilərin istehsalını subsidiyalaşdırmağı tövsiyə edib.

■ Türkiyə lirəsinin ABŞ dollar qarşısında bahalaşması müşahidə olunub. Dünən 1 dollar 13,45 lirəyə qədər yüksəlmişdi. Rəskin enişlə 11,60-dan aşağı düşüb. Məzənnənin gündəlik azalması 9 faizi ötüb. Hazırda 1 ABŞ dolları 11,99 lirə təklif edir.

# Yerində sayan Azərbaycan elmi

## Araşdırma

***Bu gün qlobal səviyyədə inkişafın məhz elmdən asılı olduğunu, artıq hər kəs anlayır. Ən azından, son 3 ildə dünyanı çənginə alan koronavirus pandemiyası ilə mübarizə təcrübəsi göstərdi ki, bu kimi qlobal təhlükələrin qarşısını, ancaq elm sahəsini inkişaf etdirməklə almaq mümkündür. Bu reallığı qəbul edən ölkələr öz büdcələrindən elm sahəsinə böyük vəsaitlər ayırmaqda sanki yarışa giriblər. Məsələn, dünyanın ən böyük iqtisadiyyatına malik ABŞ-da dövlətin elm xərcləri 2019-cu ildə 118 milyard dollar, 2020-ci ildə 134 milyard dollar olub. Bu il isə bu sahəyə 142 milyard dollar xərcləmək nəzərdə tutulur. Bu ölkədə özəl sektorun elmi-tədqiqat xərcləri dövlətin ayırdığı vəsaitlərdən xeyli yüksək olmaqla,ÜDM-in 1,5-1,6 faizinə çatır.***



### Bu sahədən niyə pul qazana bilmirik?

Beləliklə, ABŞ-da elmə çəkilən xərclər ümumilikdə ÜDM-in 3 faizi civarındadır. Məlumat üçün qeyd edək ki, 2019-cu ildə ABŞ ÜDM-i 21,4 trilyon dollara bərabər olub. Dünyanın ikinci nəhəng iqtisadiyyatına malik Çində 2019-cu ildə dövlətin və biznesin elm xərcləri 322 milyard dollar - ÜDM-in 2,2 faizini təşkil edib. 2020-ci ildə xərclərin həcminin 400 milyard dollara, ÜDM-in 2,5 faizinə çatdırılması nəzərdə tutulurdu. Avropa Birliyi dövlətlərinin elm xərcləri 2019-cu ildə 306 milyard avrodan yuxarı, Birlik ÜDM-nin 2,19 faizi həcmində vəsait xərclənib. Özəl sektorun xərcləri bu həcmə daxil deyil. 2019-cu ildə Birlik üzvləri arasında elmə ayrılan dövlət vəsaitlərinin həcminə görə liderliyi İsveç (ÜDM-in 3,39 faizi), Avstriya (3,19 faiz), Almaniya (3,17 faiz), Danimarka (2,96 faiz) və sair olub.

Azərbaycana gəlincə, ölkəmizdə elm xərcləri ÜDM-nin təxminən 0,20 faizi həcmindədir. 2020-ci ildə elm xərclərinə dövlət büdcəsində 193,7 milyon manat vəsaitin ayrılması nəzərdə tutulurduki, bu da 2019-cu illə müqayisədə 57,4 milyon manat və ya 42,1 faiz çox idi. Pandemiya səbəbindən avqust ayında dövlət büdcəsindən elmə ayrılan xərclər azaldılaraq 186 milyon 317 min 72 manata endirildi. 2021-ci ilin dövlət büdcəsindən isə elm xərclərinə 183,3 milyon manat vəsait nəzərdə tutulub ki, bu da 2020-ci ildəkindən daha azdır. Sənədə əsasən, elm xərcləri üzrə proqnozlaşdırılan vəsaitin 116,7 milyon manatı Azərbaycan Milli Elmlər Akademiyasının və onun tabeliyində olan 46 elmi tədqiqat müəssisəsi və təşkilatlarının maliyyələşdirilməsinə yönəldiləcək. Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişaf Fondunun maliyyələşdirilməsi üçünsə 2021-ci ilin dövlət büdcəsində 4,2 milyon manat vəsait proqnozlaşdırılıb ki, bu da 2020-ci illə müqayisədə 1,0 milyon manat və ya 31,9 faiz çoxdur. Gələn ilin büdcə layihəsində də elmə olan yanaşma builki vəziyyətdən ciddi fərqlənmir. Belə ki, gələn il Azərbaycan dövlət büdcəsinin elm sahəsinə xərcləri 202,79 milyon manat səviyyəsində gözlənilir. Sənədə əsasən, bu, gələnilki büdcə xərclərinin 0,7 faizi deməkdir, 2021-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 10,6 faiz çoxdur. Vəsaitin 0,134 milyard manatı Azərbaycan Milli Elmlər Akademiyasına və 46 tabeli qurumuna yönəldiləcək. Bu isə illik müqayisədə 14,7 faiz çoxdur.

Bəs, görəsən, Azərbaycanda elmi layihələrə ayrılan vəsaitlər nə dərəcədə effekt verir? Son illər özünü maliyyələşdirən elmi innovativ layihələrin sayı nə qədər olub? Bu istiqamətdə daha effektli nəticələr əldə edilməsi üçün hansı dəyişikliklərə ehtiyac var?

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bildirib ki, Azərbaycanda elmə və elmi tədqiqatlara ayrılan vəsaitlər ildən-ilə artırılır. Amma bütövlükdə büdcədə nəzərdə tutulan elm xərcləri yetərincə deyil:**



"Əgər ÜDM-nin 2 faizinə qədər elmə vəsait ayrılmırsa, həmin ölkələrdə elm əslində görüntü xarakteri daşıyır. Yəni, bu beynəlxalq araşdırmaların nəticəsidir. Azərbaycanda isə elm sahəsinə ayrılan vəsaitlər ÜDM-nin çox cüzi bir hissəsini təşkil edir. Elmə ayrılan vəsaitlərin əksər hissəsi isə elmi tədqiqat institutlarının, elmi qurumların saxlanılmasına istifadə olunur. Belə ki, həmin vəsaitlər daha çox əməkhaqqı, kommunal xərclərin qarşılanmasına, xidmətlərin satınalınmasına və s. yönəldilir. Amma bilirsiniz ki, cənab Prezidentin sərəncamı ilə Azərbaycanda Elmin İnkişafı Fondu yaradılıb və elmi layihələrin böyük bir qismi həmin qurum vasitəsilə maliyyələşdirilir. Lakin bu qurumun da fəaliyyətində əslində qənaətbəxş olmayan məqamlar var. Bu baxımdan ki, pilot layihə kimi böyük maliyyə tutumlu layihələr icra olundu, amma onların da effektliyi olmadı. Ona görə də Azərbaycanda elm bütövlükdə görüntü xarakteri daşıyır. Bu istiqamətdə idarəetmədə də kifayət qədər ciddi problemlər var.

Biz illərdir qeyd edirik ki, elmin idarə olunmasında, dövlətin elmi siyasətinin həyata keçirilməsində yeni baxışlar olmalıdır, islahatlar aparılmalıdır. Ancaq bu islahatlar kosmetik xarakter daşımamalıdır. Təəssüf ki, biz "islahat"ı yalnız söz olaraq eşidirik, hər hansı bir nəticələr görmürük. Sizi əmin edirəm ki, indiki şəraitdə Azərbaycanda ümumdaxili məhsulun, hətta 10 faizi belə elmə yönəldilsə, hazırkı durumda yenə də bu idarəetmə sistemi ilə Azərbaycan elmini inkişaf etdirmək mümkün deyil".

### "AMEA işçilərinin heç 10 faizi"

**Ekspert vurğulayıb ki, ölkədə bu sahəni inkişaf etdirməyin əsas yolu elm, təhsil və iqtisadiyyat üçbucağının qurulmasıdır: "AMEA sovet dövründən qalan bir qurum kimi artıq özünü doğrulda bilmir.** Akademiyada bəzi elmi-tədqiqat institutları istisna olmaqla bir sıra sahələrdə elm formal xarakter daşıyır. Çox təəssüf ki, Akademiya beynəlxalq elmi qrantlardan xeyli kənar qalıb. Elm sahəsində qocalma tendensiyası təhlükəli həddə çatıb. Bu da ona gətirib çıxarıb ki, Azərbaycan elmi təhsillə, texnologiyalarla, innovasiyalarla, iqtisadiyyatla birgə olmaqdan xeyli uzaq düşüb. Nəticədə də Azərbaycan elmi beynəlxalq tələblərə cavab verə bilmir. Biz hər zaman qeyd edirik ki, Akademiyanı bu cür saxlamaq effektsizdir. Hazırkı dövrdə dördüncü sənaye inqilabının çağırışları aktualdır. Bizim elm sahəsi isə bu çağırışlara cavab verə bilmir. Ona görə də Azərbaycanda elm, təhsil və texnologiyalar nazirliyinin yaradılması olduqca vacibdir. Bu addım proseslərin vahid mərkəzdən idarə olunmasına gətirib çıxarardı. Bir məqama diqqət yetirək. Bu gün AMEA-da 10 mindən çox əməkdaş fəaliyyət göstərir. Onların özlərinin effektliyinin nə dərəcədə olması xeyli düşündürücüdür. Həmin işçilərin heç 10 faizi effektli elmi araşdırmalarla məşğul deyil. Yalnız baş qatmaqla, gün keçirməklə elm olmaz. Akademiyanın Yüksək Texnologiyalar Parkı yaradılıb. Təsəvvür edin ki, Akademiya rəhbərliyi parkın məhsulu kimi bulaq suyunun qablaşdırılması, mühərrik yağının istehsalı ilə tanış olurdu. Amma dünya nanotexnologiyalardan danışır. Bu yanaşma ilə elmdən pul qazanmaq olar? Əlbəttə ki, yox. Ona görə də bizim ölkədə özünü maliyyələşdirə bilən elmi layihələr demək olar ki, yox dərəcəsindədir. Ölkə başçısı hər zaman dövlət siyasətində elmin nə qədər vacib yer tutmasını, bütövlükdə ölkə iqtisadiyyatının lokomotivi rolunda elmin mövcudluğunu diqqətə çatdırır. Amma təəssüflər olsun ki, dövlət başçısının bu gözləntilərini Azərbaycan elmi doğrulda bilmir. Yəni, bu sahədə olduqca ciddi islahatlar aparılmalıdır. Bu sadəcə vəsaitlərin artırılması ilə yekunlaşmamalıdır. Bununla bağlı biz çox gecikirik. Biz nə qədər ki, elmi universitetlərə verməyəcəyik, universitetlər təhsillə bərabər elmlə məşğul olmayacaqlar, o zaman bu sahədə effektivliyi heç vaxt görməyəcəyik. Məsələn, sadə bir nümunə qeyd edim. Bu gün universitetlərdə, Akademiyada elmi işlər müdafiə olunur. Elmi dərəcələrin təsdiqi belə hələ universitetlərdə deyil. Bu mənada universitetlərə ciddi muxtariyyət verilməsinin vaxtı çoxdan çatıb. Və ali məktəblərdə elmi potensialı inkişaf etdirmək, elmi araşdırmaları yenidən qurmaq, müasir dünya elminə inteqrasiya oluna bilən və dövlətçilik tələbinə cavab verən sistem formalaşdırmaq vacibdir. Eyni zamanda, dünya iqtisadiyyatının perespektiv inkişaf istiqamətlərinə müvafiq olaraq Azərbaycan elminin inkişafı zəruridir".

> *Təəssüf ki, biz "islahat"ı yalnız söz olaraq eşidirik, hər hansı bir nəticələr görmürük...*

> *Düzdür, Azərbaycanda elmə ayrılan vəsait yetərli deyil, amma büdcənin imkanları da buna çatır...*

### Elmin kommersiyalaşması sıfır səviyyəsindədir

**İ.Orucov onu da qeyd edir ki, Akademiyanın universitetləri vəsait qazana bilmirlər: "Elmin kommersiyalaşması xeyli ciddi məsələdir və zamanın tələbidir. Akademiyanın maddi-texniki bazası büdcədən ayrılan vəsaitlər hesabına xeyli gücləndirilib.** Elementar Orta Asiya səviyyəsində strateji əhəmiyyət kəsb etməyən tədqiqatlar aparılır, nə qədər plagiat işlər var. Bunlarla biz hara gedə bilərik? Elmi araşdırmalar üçün dövlətdən vəsait gözləməməliyik. Beynəlxalq elmi qrantların Azərbaycana gətirilməsinə çalışmalıyıq. Eyni zamanda, elmi işçilərin peşəkarlığı artırılmalı və Azərbaycan elmi gəncləşdirilməlidir. Bu gün ciddi elmi nətcə əldə edə bilməyən elmi müəssisənin rəhbərinin hansı məntiqlə bahalı maşınlarda gəzməyə ixtiyarı var? Bu, sadəcə olaraq, elmin məmurlaşması, elmin bürokratikləşməsidir.

Akademiya pul qazana bilmirsə, necə olur ki, xidməti maşınların alınmasına büdcədən yüzminlərlə vəsait gedir? Akademiyada elmi mühit yoxdur, ora sadəcə bataqlıqdır. İllərdir deyirik ki, gəlin dövlət proqramı çərçivəsində, dövlətin vəsaiti hesabına xaricdə təhsil almış gəncləri elmə cəlb edin. Bunu etmək əvəzinə, gənclərə qısqanclıq hissi ilə yanaşırlar. Ora gələn istedadlı gənclər də vəziyyəti görüb dərhal oradan uzaqlaşırlar. Biz nə qədər belə dəyərli gəncləri, beyinləri itirdik. Bu gün Akademiyada çox az sayda fədakar alimlər var.. Yəni elm qohumbazlığı sevmir, elm bürokratiyanı sevmir və s. Bu formada isə elmin gələcəyindən danışmaq mümkün deyil. Ona görə də bizdə elmin kommersiyalaşması sıfır səviyyəsindədir ".

### Bu sahə təkcə büdcədən asılı olmamalıdır

**■ Mövzu ilə bağlı Azərbaycan İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru Əli Əlirzayev hafta.az-a açıqlamasında qeyd edib ki, elmə büdcə imkanlarına uyğun olaraq vəsait ayrılır:** "Düzdür, Azərbaycanda elmə ayrılan vəsait yetərli deyil, amma büdcənin imkanları da buna çatır. Digər tərəfdən, büdcədən ayrılan vəsaiti əsaslandırmaq lazımdır. Demək olar ki, Azərbaycanda elm sahəsində böyük inkişaf olmadığından nəzərdə tutulan vəsait daha çox elmi işçilərin əməkhaqlarının ödənilməsinə, elmi müəssisələrin saxlanılmasına gedir. Digər tərəfdən, bu sahə təkcə büdcədən asılı olmamalıdır. Bu sahənin inkişafı üçün alternativ variantlar var. Bu variantlar Azərbaycanda yox dərəcəsindədir. Yəni layihələr özü-özünü maliyyələşdirməli, özəl sektor bu sahəyə investisiya yatırmaqda maraqlı olmalı, elmi məhsulun satışından müəyyən gəlir əldə olunmalıdır və s. Bunlar bizdə çox aşağı səviyyədədir. Bu sahəni inkişaf etdirmək üçün prioritet sahələr müəyyənləşməlidir və məsələdə mövcud reallıqlar da nəzərə alınmalıdır. Məsələn, dünya NANO texnologiyadan danışır. bu sahəni prioritet kimi götürsək, digər aparıcı ölkələrlə rəqabət apara bilməyəcəyik. bizdə bununla bağlı mövcud potensial aparıcı ölkələr səviyyəsində deyil. Ona görə də elmlə bağlı prioritet sahələri müəyyənləşdirərkən həm də mövcud potensialımızı nəzərə almalıyıq ki, qoyulan vəsait effektli olsun".

***Sevinc***

# Türk yurdu Kərkükü gözləyən təhlükə

## Müzakirə

***Bu günlərdə dünya mediasında belə bir xəbər yayıldı ki, İraqın Kürdüstan muxtariyyətinə bağlı peşmərgə adlanan silahlı qüvvələr yenidən Kərkük şəhərinə daxil olacaq. İraqın öz ordusu, rəsmi təhlükəsizlik qüvvələri, müəyyən adlar altında fəaliyyət göstərən (məsələn, Haşdi Şabi) fərqli silahlı qüvvələri olduğu halda Kürdüstan muxtariyyətində yaradılmış hərbçilərin Kərkükdə nə işi var?***



Uzun illər ərzində bu qədim türk şəhərini kürdləşdirməyə çalışan, bunun üçün şəhər əhalisini assimilyasiyaya uğradan, kənar bölgələrdən kürdləri bura köçürməklə və hətta türkmənləri başqa ərazilərə daşınmağa məcbur etməklə Kərkükün demoqrafik tərkibini dəyişməyə cəhd edən (müəyyən mənada buna nail olunub) Kürdüstan muxtariyyətinin rəhbərliyi peşmərgəni yerləşdirməklə işğal prosesini rəsmiləşdirmək niyyətindədir. Mərkəzi hökumət buna imkan verəcəkmi? Türkiyənin məsələyə mövqeyi necə olacaq, ümumiyyətlə, peşmərgənin Kərkükə yeridilməsi məsələsi doğrudurmu? Kərküklü türkmənlər şəhərlərinin işğalına necə reaksiya verəcək? Həssas məsələlərdən doğan suallar yaranır. Bu məqsədlə İraq türkmənlərini təmsil edən bir sıra siyasi partiyaların nümayəndələri ilə söhbətləşdik.

> *Kürdlərin nəzərində isə bu qüvvələrin yaradılması ərazilərinin genişləndirilməsi mənasına gəlir*

***İlk sualımız bu oldu ki, doğrudanmı peşmərgə Kərkükə girmək istəyir? Axı bir neçə il öncə peşmərgə zatən şəhərə girmişdi. İraq ordusu və "Haşdi-şabi" qüvvələri onları qovub çıxardı. Peşmərgənin ardınca şəhərin kürd əhalisinin xeyli hissəsi Ərbilə qaçdı. Bu halda yayılan xəbərlər nə dərəcədə əsaslıdır? Eyni suallara İraq türkmənlərini təmsil edən üç siyasətçi cavab verir.***

**Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya:**

- Peşmərgə qüvvələri üç ildir, Kərkük şəhərindən 6-7 kilometr aralıda yerləşmişdi. Son vaxtlar İŞİD-in artan təhlükəsinə qarşı İraq hökumətinin də razılığı ilə Kərkükə yaxın mövqedə yerləşdilər. Eyni zamanda, son bir il ərzində Amerikanın məsləhəti ilə İraq ordusu - peşmərgə ortaq qüvvələrini və iki tərəf arasında əlaqələri koordinasiya edəcək mərkəzlərin qurulması məsələsində razılığa gəlinib. Əsl məqsəd isə kürd bölgəsi ilə İraq ordusunun nəzarət etdiyi ərazilər arasında mübahisəli olan boş bölgədə İŞİD-ə qarşı təhlükəsizlik tədbirlərinin görülməsidir.

Daha konkret desək, neft mədənlərini və neft nəql edən boruların təhlükəsizliyini təmin etmək üçün Amerikanın vasitəçiliyi ilə ortaq hərbi birləşmələr yaradılıb. Kürdlərin nəzərində isə bu qüvvələrin yaradılması ərazilərinin genişləndirilməsi mənasına gəlir. Biz Türkməneli Partiyası olaraq deyirik: bir halda ki, İraq-peşmərgə ortaq hərbi qüvvələri yaradılıb, o zaman türkmən hərbi qüvvələri də onların yanına alınsın və üçtərəfli xidmət göstərsinlər. Hesab edirik, bu halda qurulmuş hərbi qüvvələr daha geniş və təsirli olacaq.

**Türkmən Haqq Partiyasının sədr müavini Sami Kolsuz:**

- İraqın iqtidar nümayəndləri ilə sürəkli şəkildə əlaqə saxlayırıq. İndiyədək keçirdiyimiz görüşlərdən bu qənaətə gəlmişik ki, İraq hökuməti Kərkükdə təhlükəsizliyi qorumaq əzmindədir və prizmadan yanaşsaq, peşmərgənin şəhərə daxil olma ehtimalı yoxdur. İndi deyirlər ki, peşmərgə şəhərə gəlir, bu xəbərlər tamamilə əsassızdır.

**Türkmən Cəbhəsinin Kərkük vilayəti üzrə rəsmisi Kahtan Vengavi:**

- Öncə qeyd edim ki, Kərkük çox qədim türk şəhəridir. Hələ Səlçuqlu dönəmində belə Kərkük qalasında yaşayış olub. Bu gün Kərkükün demoqrafik strukturunu dəyişmək məqsədilə kürd partiyaları peşmərgə məsələsini mütəmadi gündəmə gətirir. Xüsusilə də siyasi böhranlar yaratmaq üçün kürd partiyaları İraq Hökumətinə siyasi təzyiq göstərmək məqsədilə peşmərgə məsələsini ortaya atır və bundan istədikləri qazancı götürməyə çalışırlar.

***- Bəs bu məsələyə Bağdad hökuməti nə deyir? Əs-Sədrin rəhbərlik etdiyi yeni iqtidar Ərbilə istədiyini etməsinə imkan verəcəkmi sizcə?***

**Riyaz Sarıkahya:**

- Bağdaddakı siyasi çevrələrin Kürdüstan muxtariyyəti ilə yaxşı əlaqələri var. Keçmişdəki narahatlıqlar geridə qalıb. Üstəlik, son seçkilərdə kürdlərin Bağdada təsiri bir az da güclənib. Xüsusilə də indki hökumətqurma prosesində şiə partiyaların kürd siyasi partiya və millət vəkillərinə ehtiyacları daha da artıb.

**Sami Kolsuz:**

- 2017-ci il 16 oktyabr hadisələrindən sonra Bağdaddakı siyasi dairələrin mövqeyi belədir: Kərkük yenidən Kürdüstan muxtariyyətinin nəzarəti altına girə bilməz. Çünki mərkəzi hökumət yaxşı bilir ki, bu halda Kərkükün böyük neft yataqları tamamilə Ərbilin əlinə keçəcək.

> *Peşmərgənin şəhərə daxil olma ehtimalı yoxdur*

**Kahtan Vendavi:**

- Mərkəzi hökumət Perşmərgə ilə bağlı qərarını 2017-ci il oktyabrın 16-da keçirdiyi əməliyyatla verib və bildiyimiz kimi. Həmin vaxt peşmərgəni qovaraq Kərkükün inzibati ərazisindən çıxarıb. Mərkəzi hökumət bu məsələ haqda hər hansı təklifləri müzakirə etməməkdədir. Bayaq da dediyim kimi, bu, siyasi təzyiqdən başqa bir şey deyil. Sadəcə son zamanlar sosial şəbəkələrdə gündəmə çevrilərək siyasətin başını qatmaqdadır.

***- Türkmən partiyalarının peşmərgənin Kərkükə gəlişinə dair xəbərlərə reaksiya necədir? Maraqlıdır, partiyalar bir araya gələrək öz narahatlığınızı mərkəzi hökumətə və hətta özünüzə arxa bildiyiniz dövlətlərə müraciət etdimi?***

**Riyaz Sarıkahya:**

- Türkmən partiyaları arasında bu məsələ ilə bağlı bir qrup yaradılıb. Həmin qrup məsələyə bağlı Bağdadın rəsmi dairələri ilə görüşlər də keçirib. Məqsədimiz budur ki, xalqımızın təhlükəsizliyi üçün təminat verilsin. Bundan əlavə, qurulacaq yeni hökumətdə türkmənlərin mütləq nəzərə alınması da rəsmi dairələrə xatırladılıb.

**Sami Kolsuz:**

- Türkmən partiyaları seçki vaxtı qurduqları koalisiya çərçivəsində birgə fəaliyyət yürüdürlər. Bu günlərdə koalisiyanın sədri Bağdadda vacib görüşlər keçirərək, türkmənlərin narahatlığını və gözləntilərini əlaqədar orqanlara çatdırmaqdadır. Məsələ bu cür olduğu halda, kimlərsə prosesin təhlükəli həddə çatdığını iddia edərək, sanki hər şeyin olub-bittiyini isbatlamağa çalışırlar. Bunu niyə edirlər, özlərindən soruşmaq lazımdır.

**Kahtan Vendavi:**

- Türkmən partiyaları İraqda keçirilən parlament seçkilərindən bir ay öncə bir araya gələrək, seçkilərə vahid siyahı əsasında qoşulmaq üçün qərar qəbul etdilər və bildiyiniz kimi, türkmənlər seçki prosesinə Birləşmiş İraq Türkmənləri Cəbhəsi şəmsiyəsi altında qoşulublar. O gündən bəri bütün siyasi məsələlərdə qərarlar məhz bu birlikdə verilir.

Peşmərgə məsələsi ilə bağlı da qərar mövcuddur - onların yenidən Kərkükdə olmasını istəmirik və etirazımızı Bağdad hökumətinə də mətbuat konfransı keçirərək çatdırmışıq. Şəxsən biz Türkmən Cəbhəsi olaraq telekanallarda qonaq olaraq peşmərgənin Kərkükə gəlməsi ehtimalını qətiyyətlə qəbul etmədiyimizi ictimaiyyətə bəyan etmişik.

***- Türkiyədə peşmərgə məsələsinə nə deyirlər? Bildiyim qədər, Türkiyə 5 iyun 1926-cı il tarixdə Ankarada imzalanan sazişə əsasən İraqa verilən Kərkükdən vaz keçmiş deyildir. Kərkük və Mosul "Misaki-Millinin"də yer almaqdadır...***

**Riyaz Sarıkahya:**

- Kərkük və İraqın statusu Ankaranın icazəsi olmadan dəyişdirilə bilməz. Türkiyə İraqda olub bitənləri yaxından izləyir. Nəzərə almaq lazımdır ki, Türkiyə tərəfi dəfələrlə ən yüksək səviyyədə İraqın ərazi bütövlüyünün pozulmasına qarşı çıxdıqlarını bildirib.

**Sami Kolsuz:**

- İnanırıq ki, Kərkükdə türkmənlərə qarşı təhlükə yaranarsa və Bağdad hökuməti xalqımızı qorumaqda aciz qalarsa, o zaman bəlkə də Türkiyə dövləti peşmərgənin bir müddət Kərkükün təhlükəsizliyini təmin etməsinə razı ola bilər. Əks təqdirdə etiraz edəcək və qəti mövqeyini ortaya qoyacaq.

**Kahtan Vendavi:**

- Bilindiyi kimi, Kərkük Türkiyə üçün hər baxımdan çox önəmli şəhərdir. Ankaranın bu məsələdə mövqeyi belədir: İraqın birlik və bərabərliyinə toxunula, ərazi bütövlüyü dəyişdirilə bilməz. Türkiyə bu mövqeyini 2017-ci ilin 16 oktyabr hadisələri zamanı da qəti şəkildə ortaya qoyub. Hesab edirik ki, bütün hallarda Türkiyə bu məsələyə səssiz qalmayacaq.

> *Peşmərgə məsələsi ilə bağlı da qərar mövcuddur - onların yenidən Kərkükdə olmasını istəmirik*

***Vüsal Tağıbəyli***

# Qazilərimizin pensiyaları kifayət qədər yüksəkdir

## Müsahib

***Bu gün ölkəmizdə qanunla təsbit olunan sosial təminat məsələlərinin bəzən düzgün həllini tapmadığı müşahidə olunur. Buraya aztəminatlı ailələrin, Qarabağ müharibəsində iştirak edən qazilərin, şəhid ailələrinin sosial-məişət, tibbi problemləri, əlilliyin təyinatı və s. məsələləri aid edə bilərik. Bu günlərdə Milli Məclis gələn ilin büdcə layihəsini müzakirə etdi. Orada da bu kimi problemlər xüsusilə qabardıldı, təkliflər irəli sürüldü. Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, millət vəkili Musa Quliyevlə hafta.az olaraq bu məsələlər ətrafında söhbətləşdik:***



**Musa Quliyev,**
Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, millət vəkili

***- Musa müəllim, "Ev işlərinə görə kişilər qadınlara əməkhaqqı verməlidir" - sosial şəbəkələrdə mübahisələrə səbəbə oldu və aparılan ictimai müzakirələrdə insanların sosial problemlərlə bağlı istəkləri bir daha qabardıldı...***

- "Ev işlərinə görə kişilər qadınlara əməkhaqqı verməlidi", - deməkdə məqsədim məişətdə qadınlarımızın zəhmətinə qiymət vermək, onların əməyinin nə qədər dəyərli olduğunu cəmiyyətin diqqətinə çatdırmaq idi. Bu qiymət qadına daha çox hörmət bəsləmək, onun qədr-qiymətini bilməkdən ibarət ola bilər.

Həmin çıxışımda başqa təkliflər də vermişdim, təəssüf ki, onlar bir qədər medianın diqqətindən kənarda qaldı. Təklif etmişdim ki, şəhid anası ordeni təsis edilsin. Pandemiyada fədakarlıq göstərən tibb işçilərimizə dövlətin müxtəlif mükafatları verilsin. Televiziyalarda uğurlu qadın obrazı seçilərkən şou-biznes nümayəndələri deyil, alim, sahibkar qadınlarımız, şəhidlərimizin anaları və həyat yoldaşları diqqət mərkəzinə gətirilsin.

Həmin fikirdə məişət zorakılığının iqtisadi zorakılıq növünə məruz qalan qadın problemlərindən danışdıq. Bu həm BMT-nin konvensiyasında, həm də bizim 2013-cü ilin məişət zorakılığına qarşı mübarizə aktında öz əksini tapıb. Zorakılıqdan biri də qadını bilərəkdən özündən iqtisadi asılı vəziyyətə gətirməkdir. Qadını təhsil almağa, işləməyə qoymurlar. Qadın iqtisadi cəhətdən asılı vəziyyətdə qalır. Kim ailələrdə öz büdcəsini necə qurursa, bu onun özünə aiddir. Əslində, çox vaxt ailə büdcəsi qadınlarda olur.

Həmin tezizi burada bir daha qeyd etməklə qadın əməyinə daha yüksək qiymət verməyin cəmiyyətin inkişaf və mədəniyyət göstəricisi olduğunu bir daha vurğulamaq istəyirəm:

Əməkhaqqına münasibətdə də kişi əməyinə nisbətən qadın əməyinin diskriminasiya olunduğunu söyləmək olar. Ev işlərinin, ailə təsərrüfatının idarə olunmasının, ailə üzvlərinə qulluq kimi haqqı ödənilməyən iş saatlarının 77%-i qadınların payına düşür. Azərbaycanda qadınların orta əməkhaqqısı kişi əməyinin yalnız 63,3%-ni təşkil edir. Bu rəqəm elmi-texniki fəaliyyət sahəsində 47,6%, maliyyə və sığorta fəaliyyəti sahəsində 59,2 %, emal sənayesi sahəsində 63,8%, səhiyyə və sosial xidmətlər sahəsində 63,9%, təhsil sahəsində isə 79% təşkil edir.

Qadın sahibkarlığına ölkədə kifayət qədər dəstək verilməsinə baxmayaraq, hələ də sahibkar qadınların sayı kişilərdən 3,7 dəfə azdır. Əgər 836 679 nəfər kişi fərdi sahibkarlıqla məşğul olursa, qadınların sayı 225 858 nəfər təşkil edir".

> *"Gələn ilin ikinci yarısında qiymət artımının qarşısını almış olacağıq*

Sosial şəbəkələrdə yazırlar ki, Musa Quliyev təklif verib. Əslində bu, təklif deyil. Məişət zorakılığı haqqında qanunda bunun aradan qaldırılma yolları da var. Kim şikayət edirsə, müvafiq hakimiyyət orqanları məsələni həll etməlidir.

***- Milli Məclisin büdcəsi ilə bağlı müzakirələr getdiyi bir zamanda deputat Tahir Kərimli parlament əməkdaşlarına ev, maşın verilməsi məsələsini qaldırmaqla ictimai qınağa səbəb oldu və sonra üzr istədi. Bir başqası deputatlara kirayə pulunun verilməsi məsələsi ilə bağlı fikirləri ilə diqqət çəkdi. Necə hesab edirsiniz, doğrudanmı mövcud şəraitdə deputatların büdcədən dəstək almasına xüsusi ehtiyac var? Deputatın maaşı, yaxud həyat şəraiti öz seçicisinin sosial rifahına nə dərəcədə adekvatdır?***

- Bu məsələ ilə bağlı mənim heç bir yanaşmam yoxdur. Tahir Kərimlinin, yaxud başqa bir deputatın da çıxışını şərh etməyi doğru saymıram.

Hər bir deputat öz fikrində haqlı da ola bilər, nahaq da. Cəmiyyətin deputata, Milli Məclisə olan marağını və tələbini da normal hesab edirəm. Seçdiyi insanlardan hesabat tələb etmək onun haqqıdır, hüququdur.

***- Xəbər verildiyi kimi, 2022-ci il dövlət büdcəsindən ayrılan hər 100 manatın 46 manatdan çoxu məhz sosial sahəyə xərclənəcək. Konkret I-II qrup əlillərin pensiyaları nə qədər qalxa bilər və bu sırada iş qabiliyyətini itirən qazilərin həyat fəaliyyəti ilə bağlı vəziyyət hansı yöndə dəyişəcək?***

- Pensiyalarda xeyli artım olacaq. Ümumiyyətlə, yaşa görə pensiyalarda 41 manat artım olacaq. Əlilliyə görə pensiyada 30-38 manat, ailə başçısını itirməyə görə pensiyada 35 manata qədər artım olacaqdır. Bu son hədd deyil. Ehtiyac olarsa gələn ilin ortasında yenə də əlavə artımlar ola bilər.

İşləməyən qazilərin həyat təminatı ilə bağlı narahatlığa gəlincə, qeyd etməliyəm ki, qazilərimizin pensiyaları kifayət qədər yüksəkdir. Bununla yanaşı onlar Prezident Təqaüdü də alırlar. Eyni zamanda onların özləri, yaxud ailə üzvləri məşğulluq proqramına cəlb olunub və bu çərçivədə kiçik biznes işləri ilə məşğul ola bilərlər.

Bu il sığorta fondunun büdcəsi müzakirə olunur və o büdcədə də xeyli vəsait nəzərdə tutulub. Məhz sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlarımızın məşğulluğunun təmin olunması üçün bu proqrama cəlb oluna bilərlər.

Digər tərəfdən, əmək qabiliyyəti yoxdursa, təbii ki, onlar yalnız pensiya və müavinət ala biləcək və yaşayış minimumundan az qazancı varsa, sosial yardım ala bilər. İnanmıram ki, Qarabağ qazilərinin, yaxud şəhid ailələrinin bu yaşayış minimumundan aşağı qazancları olsun. Onların pensiya və təqaüdləri o biri pensiyalardan kifayət qədər yüksəkdir.

***- Əlillərlə bağlı yeni qaydalar qüvvəyə mindikdən sonra onların sosial ödənişlərində dəyişikliklər nəzərdə tutulurmu?***

- Bəli, gələn il iyulun 1-dən yeni ekspertiza meyarları müəyyən olunub və artıq qüvvəyə minəcəkdir. Bu, Ümumdünya Səhiyyə Təşkilatının, o cümlədən Birləşmiş Milətlər Təşkilatının tələbidir.

Bilirsiniz ki, Azərbaycan 2008-ci ildə BMT-nin əlilliyi olan şəxslərin hüquqları haqqında konvensiyanı ratifikasiya edib və ondan sonra öz qanunlarımızda uyğunlaşdırmışıq. Bu həm də ordan gələn tələbdir. Əlillik müəyyən olunarkən, əlillik qruplar və yaxud dərəcələrlə deyil, faizlərlə müəyyən olunacaq. Sağlamlıq imkanı 30 faizə qədər itirilərkən əlillik müəyyən olunmur. Yalnız istehsalat xəsarəti və peşə xəstəliyi zamanı olan əlillik 30 faizdən aşağıda müəyyən olunur. 30 fazidən 100 faiz arasında orqanizmin funksiyasının pozulmasından asılı olaraq müxtəlif əlillik faizləri veriləcək. Həmin faizlərə də uyğun vətəndaşlarımız sosial sığorta ödəyiblərsə, onların müəyyən pensiya kapitalı varsa, bunlar da onun üstünə gəlməklə pensiya kapitalı rüsumunda müavinət alacaqlar.

***- Qarabağ müharibəsinən sonra bizə müraciət edən elə qazilər var ki, aldıqları zədələrə görə ayağa qalxa bilmirlər, amma onlara iş qabiliyyəti olan şəxslər kimi rəyi verilib. Belə neqativlərin aradan qaldırılması, həqiqi əlilliyin müəyyən olunması üçün hansı yeni yanaşma olmalıdır?***

- Belə neqativ faktlarla bağlı hər bir qazi ya bizə, ya da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilərlər. Media qurumlarına belə məlumatlar daxil olduqca faktlar bizə göndərilməklə araşdıra bilərik. Qarabağ müharibəsində, ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyündə sağlamlığını itirmiş şəxslərin ekspertizası əyani olaraq, videogörüntülər çəkilməklə tam ədalətli şəkildə aparılır. Siz dediyiniz kimi, əgər şəxsin hərəkət qabiliyyəti tam pozulubsa, buna iş qabiliyyətinin olması ilə bağlı rəy veriblərsə, mən bunu təsəvvür edə bimirəm. Bu nəinki qanun pozuntusu, ən ağır cinayətdir. Belə bir fakt sizdə varsa, ad, soyad, telefon verin, özümüz onun əlillik təyinatını araşdıraq.

***- Qiymət artımı cəmiyyətdə narazılıq doğurub. Sizcə, sosial müavinətlər və maaşlar qiymət artımına nə dərəcədə adekvatdır?***

- Cənab Prezidentin bu ilin oktyabrın 16-da əhalinin sosial rifahının qorunması ilə bağlı sərəncamı oldu. Büdcədə həmin sərəncama uyğun olaraq vəsaitlər nəzərdə tutulub. Gələn il üçün minimum əməkhaqqı 250 manatdan 300 manata qaldırılır. Bu o deməkdir ki, vahid tarif cədvəli üzrə muzdlu əməklə məşğul olan hər bir Azərbaycan vətəndaşı haqqında bu artımlar olacaq.

Bu artımların faizi 20-40 faiz arasında dəyişəcək. İnfilyasiya isə bu il və gələn il üçün üst-üstə 10 faizdən yuxarı olmayacaq. Belə götürəndə əməkhaqqı artımı, pensiya artımı da infilyasiyanı üstələyir. Burada ciddi bir məsələ var ki, biz bunu söyləmişik. Subyektiv amillərin qarşısı alınmalıdır ki, möhtəkirlik və monapoliyanın təsirləri bazarda süni şəkildə qiymət artımına gətirib çıxarmasın. Əgər İqtisadiyyat Nazirliyinin müvafiq qurumları bu işlə ciddi məşğul olsalar, gələn ilin ikinci yarsında həm qiymət artımının qarşısını almış olacağıq, həm də maaş və pensiyaların üstələdiyini görəcəyik. Digər tərəfdən, bahalaşma, qiymət artımı tək Azərbaycan üçün xarakterik deyil. Pandemiya başlayandan sonra dünyada bir çox iqtisadi proseslər zəiflədi və dünyanın hərbi ölkəsində bahalaşma baş verdi. Məmurların öz işinə necə yanaşmasına gəlincə, arzu edərdik ki, hər kəs öz işini vicdanla və qanunla həyata keçirsin.

***✍ Tahirə Qafarlı***



# Əməkhaqqı fondundan tutulmalar

**Məlum olduğu kimi, bu gün ölkədə ciddi bahalaşma müşahidə olur. Demək olar ki, bütün sahələrdə qiymətlər gündəlik olaraq artır. Ekspertlər hesab edirlər ki, əhalinin gəlirləri mövcud bahalaşma tempinə adekvat deyil.**

Bu baxımdan əməkhaqlarının artırılması ilə yanaşı, əməkhaqqı fondundan tutulmaların səviyyəsinin azaldılması məqsədauyğun sayılır. Bəs, görəsən, əməkhaqqı fondundan tutulmaların səviyyəsi azaldıla bilərmi?

■ **Mövzu ilə bağlı hafta.azla fikirlərini bölüşən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev bildirib ki, ölkəmizdə bahalaşmaya təsir göstərən bir sıra amillər var:** "Məsələn, bəzi istehsal olunan məhsulların xammalı xaricdən gəlir, bazardakı əksər məhsullar xaricdən idxal olunur, ölkədə şəffaflaşma gedir və əmək müqavilələri rəsmiləşdirilir. Bu kimi amillər bahalaşmaya təsir göstərir. Bununla yanaşı olaraq, pandemiya ilə əlaqədar bütün müəssisələrdə dezenfeksiya işləri həyata keçirilir ki, bu proses 1000-10000 manat arası dəyişir. Bu da əlavə xərclərin yaranmasına gətirib çıxarır. Eyni zamanda, özəl sektorun dövlətin həyata keçirdiyi quruculuq-abadlıq işlərinə dəstək verilməsi kimi sosial xərcləri var. Yəni, bu kimi faktorlar istər-istəməz qiymət artımını şərtləndirir. Bu baxımdan əməkhaqqı fondundan tutulmaların səviyyəsinin azaldılması və ya bu məsələyə differensial yanaşma olsa yaxşı olar. Bu addım şəffaf müqavilələrin sayını artırar, həm də xərcləri azaldar. Bir işçi razı deyil ki, onun maaşından ciddi tutulmalar olsun. Tutaq ki, işçi rəsmi olaraq 600 manat alır və deyir ki, həmin 600 manat tam olaraq əlimə çatsın. Sahibkar deyəndə ki, məsələn, 600 manatdan sosial tutulmalar və s. nəticəsində işçiyə çatacaq məbləğ 600 manatdan aşağı olacaq, o zaman yaxşı mütəxəssis həmin işə gəlmir". Hazırda əməkhaqqı fondundan tutulmaların səviyyəsinin azaldılıb-azaldılmamasının nə dərəcədə real olmasına gəlincə, ekspert deyib ki, indiki mövcud vəziyyətdə ilk növbədə sahibkarlıq subyektlərinə bərabərhüquqlu azad rəqabət sistemi formalaşdırmaq lazımdır: "İkinci məsələ ondan ibarətdir ki, sahibkarlıq subyektləri vergi və digər sosial öhdəliklərini yerinə yetirdikdən sonra dövlət onları başqa xeyriyyə və bu kimi işlərə cəlb etməsə daha yaxşı olar. Başqa ölkələrin təcrübəsinə baxıb görürük ki, dövlət artıq vergi ödəyən sahbkarı başqa sosial məsələlərə cəlb etmir. Təbii ki, sahibkarların başqa sosial məsələlərə cəlb oluması istər-istəməz onlar üçün əlavə yükdür".

■ **Məsələyə münasbət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov hafta.az-a açıqlamasnda deyib ki, Azərbaycan qanunvericiliyinə əsasən, gəlir vergisindən 7 il müddətinə güzəştlər tətbiq olunub:** "Praktiki olaraq bu gün qeyri-neft və qeyri-dövlət sektorunda çalışanlar əməkhaqlarından vergi ödəmirlər. Bu 2022-ci ildə də davam edəcək və özəl, eləcə də qeyri-neft sektorunda çalışanlar əməkhaqlarından gəlir vergisi ödəməyəcəklər. Bu da əslində bir tərəfdən həm əməkhaqlarının məbləğinə təsir göstərən faktorlardan biridir, həm də qeyri-leqal məşğulluğun rəsmiləşdirilməsi baxımdan vacibdir. Nəticədə burada əsas məsələlərdən biri həm gizli iqtisadiyyata qarşı mübarizənin gücləndirilməsi, eləcə də vətəndaşların əmək müqaviləsi ilə işləməyə təşviq olunmasıdır. Bu zaman praktiki olaraq vətəndaşlar vergi ödəmədiyi üçün onların əməkhaqları azalmır. Bu qayda növbəti ildə də davam edəcək".

***✍ Sevinc***

# "Azercell"in dəstəyilə növbəti Uşaq Paralimpiya Oyunlarına start verildi

Ⓡ




**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-in dəstəyilə təşkil olunan Uşaq Paralimpiya İdman Oyunlarına yenidən start verilir. Uşaqların təhlükəsizliyini təmin etmək məqsədilə karantin rejiminin tələblərinə uyğun olaraq ənənəvi oyunların hər bir idman növləri üzrə ayrı-ayrı yarışlarla, azarkeşlər olmadan keçirilməsi qərara alınıb.**

2021-ci ilin Uşaq Paralimpiya İdman Oyunları çərçivəsində Sumqayıtda yerləşən Respublika Paralimpiya İdman Kompleksində pouerliftinq üzrə test yarışları baş tutub, həmçinin stolüstü tennis oyunları keçirilib. İlin sonunadək uşaq paralimpiyaçıları digər idman növləri üzrə yarışlarda da iştirak edə biləcəklər. Balaca idmançılar cüdo (26 noyabr), üzgüçülük (4 dekabr) və taekvando (10 dekabr) üzrə yarışlarda güclərini sınayacaqlar.

2014-cü ildən etibarən Azercell-in dəstəyilə fəaliyyət göstərən Azərbaycan Uşaq Paralimpiya Komitəsi indiyədək sağlamlıq imkanları məhdud olan 200-ə yaxın uşaq və yeniyetməni öz ətrafına toplaya bilib.

Burada uşaqlar peşəkar məşqçilərin köməyilə 10 idman növü - cüdo, üzgüçülük, para-taekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsləri, dağ xizəyi və snoubord ilə məşğul olurlar. Onlar həmçinin, kütləvi idman tədbirləri, yerli və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edirlər.

Qeyd edək ki, Uşaq Paralimpiya Komitəsi beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb.

Komitə sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edir. "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.



■ **Azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərinə şahidlik etmək zövqvericidir. Bunu jurnalistlərə açıqlamasında Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu deyib.**

O qeyd edib ki, azad olunan ərazilərdə bərpa-quruculuq işləri çox sürətlə gedir: "Hətta Moskvada mənə sual verilir ki, Füzuli Beynəlxalq Aeroportu cəmi 8 aya necə tikilib? Bu doğrudan da bir möcüzədir. Gözümün qarşısında dağların ətəyindən yol salındı.

Biri var bütün bunları haradasa oxuyasan, görəsən, biri də var öz gözlərinlə canlı şahidi olasan. Həqiqətən bütün bunlar insana zövq verir. Ona görə ki, ölkəmiz, xalqımız, Prezidentimiz çox uğurlu işlər görür. Xoşbəxt insanam ki, bunların hamısını gördüm", - deyə P.Bülbüloğlu vurğulayıb.




■ **Azərbaycanda ehtiyatda olan "Pfizer-Biontech" vaksininin sayı açıqlanıb. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib. Qeyd olunub ki, hazırda 162 450 doza "Pfizer- Biontech" vaksini anbarda ehtiyatda var. Əlavə olaraq tibb müəssisələrində hazırda istifadə edilən vaksin dozaları mövcuddur.**

Qeyd edək ki, ÜST Avropa Dərman Agentliyi, ABŞ Qida və Dərman Administrasiyasının rəylərini nəzərə alaraq COVID-19 əleyhinə vaksinasiyada "Pfizer/Biontech" preparatından istifadə edən ölkələrə vaksinin istifadə müddətinin uzadılması ilə bağlı məktub göndərib. Məktuba əsasən, "Pfizer/Biontech" preparatının istifadə müddəti 6 aydan 9 aya qədər uzadılıb.



■ **"Biz bu gün daha çox post-münaqişə dövründən danışsaq da əvvəlki cinayətlərə də düzgün qiymət verilməsi məsələsini diqqətdə saxlamalıyıq.**

Belə məsələlərdən biri də tarixi abidələrimizin dağıdılmasıdır. "Bunu "Böyük Qayıdış: Mədəniyyətin dirçəlişi" mövzusunda konfransda xarici işlər nazirinin müavini Elnur Məmmədov deyib: "Bizim hazırda hədəfimiz işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin qısa zamanda tamamlanmasıdır. Ötən ildən etibarən bu istiqamətdə işlər başlanıb".

O bildirib ki, bu gün Azərbaycan azad olunmuş ərazilərdə məscidlərin açılması, abidələrin bərpası ilə sülh mesajı veirir: "Bildiyiniz kimi, Ağdamda Cümə məscidinin bərpası prosesi gedir.




■ **Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda Milli Ödəniş Sistemi (AZİPS, XÖHKS) vasitəsilə aparılan ödəniş əməliyyatlarının ümumi həcmi 168,78 mlrd. manat, sayı isə 57,77 mln. ədəd təşkil edib.**

Azərbaycan Mərkəzi Bankının (AMB) dərc etdiyi göstəricilərə əsasən, əməliyyatların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 6,8% azalıb. Hesabat dövrü ərzində Milli Ödəniş Sisteminin əsas komponenti olan Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZİPS) üzrə 141,68 mlrd. manat həcmində 864 min əməliyyat həyata keçirilib ki, bu da illik müqayisədə 10,7% azdır. Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) üzrə isə yanvar-oktyabrda 27,11 mlrd. manat həcmində 56,91 mln. ədəd əməliyyat həyata keçirilib ki, bu da illik müqayisədə 20,3% çoxdur.

# "Qara cümə" həyəcanı

## Aktual

***Hər il noyabr ayının son cümə günü bütün dünyada "black friday" yəni "qara cümə"adı altında məhsullara xüsusi endirimlər təşkil edilir. "Qara cümə" tendensiyasına çılğın endirimləri ilə qoşulan ölkələrdən biri də qardaş Türkiyədir. Son illərdə isə bu ənənə Azərbaycana da gəlib. Amma bir az başqa formatda. Alıcılar 50-70 faizlik endirimlərin həqiqəti əks etdirmədiyinə öyrəşiblər. Paytaxtın bəzi mağazaları həmin gün üçün endirimlər edir, ancaq bu, kütləvi xarakter daşımır. Endirimlər adətən simvolik xarakter daşıyır - cəmi 10 faiz civarında olur.***



Bəs görəsən, yüksəkfaizli endirimlərin tətbiq olunması mağazalara iqtisadi baxımdan nə cür təsir edir? Xüsusi endirim günləri insanları alış-verişə təşviq edərkən onların psixologiyasına nə cür yansıyır? Ümumiyyətlə, belə günləri səbirsizliklə gözləməyin əsas səbəbləri nələrdir? Sosial vəziyyət, yoxsa?..

Bütün bu suallara aydınlıq gətirmək üçün əməkdaşımız mütəxəssislərə müraciət etdi.

**■ Suallarımızı ilk övcə iqtisadçı-ekspert Xalid Kərimli cavablandırdı. Onun sözlərinə görə, endirim kampaniyalarında iştirak edən şirkətlərin iki məqsədləri olur. Birincisi, artıq mövsümü keçən, ehtiyatlarında çox olan məhsulları daha ucuza satıb məhsul dövriyyəsini artırmaq, digəri isə brendin tanıtım reklam məsələləridir:**

*"Çox endirim verən mağaza ya əvvəldən buradan çoxlu qazanc götürüb, indi isə məhsulu maya dəyərinə satmaq istəyir, ya da ziyana satır...*

*Qara cümə dediyimiz anlayış isə insanların maddiyyatına ciddi təsir edən gündür...*

"Endirim olanda alıcılar həvəslə mağazalara axışırlar, beləcə brendin reklamı da getmiş olur. Həm də seçilmiş mallara endirim edilərək digərlərinin satışını həyata keçirə bilirlər.Tətbiq olunan endirimin faiz göstəricisinə gəldikdə isə deyə bilərəm ki, bu sırf şirkətlərin qərar verəcəyi məsələlərdir. Çox endirim verən mağaza ya əvvəldən buradan çoxlu qazanc götürüb, indi isə məhsulu maya dəyərinə satmaq istəyir, ya da ziyana satır". "Niyə bu endirimlər bəzi hallarda yalançı xarakter daşıyır?" sualımıza ekspertin cavabı belə oldu:

"Əslində yalan informasiya vermək qanun pozuntusudur. Şişirdilmiş formada təqdim edilən reklamlar alıcıları cəlb etmək üçün nəzərdə tutulur. Diqqətli alıcı isə endirim olub-olmadığını müəyyənləşdirə bilir".

İqtisadçı deyir ki, 50-70 faizlik endirim kampaniyaları dayanıqlı ola bilməz. Sahibkarlar rəqabətli mühitdə məhsulun üzərinə 20-25 faizdən çox qazanc qoya bilmirlər. Ona görə də davamlı kampaniya gözləmək sahibkarı müflis etmək arzusudur.

**■ Növbəti həmsöhbətimiz olan psixoloq Gülər Məmmədova isə hesab edir ki, insanların alış-verişlə bağlı düşüncələri fərdilik təşkil edir. Hər kəs geyimə, məişət əşyalarına fərdi şəkildə dəyər verir. Ona görə də "qara cümə" hər kəsin psixologiyasına fərqli təsir göstərir:**

"Bir qisim insan bundan zövq alır. Müəyyən enerji və maddiyyat sərf edərək onları əldə edirlər. Bəzi şəxslər onlara çox adi yanaşır. Başqa bir hissə isə çox yüksək frekanslı düşüncələrə malik olaraq, daim hər şeyin ən yaxşısını, ən qiymətlisini istəyir. "Qara cümə" dediyimiz anlayış isə insanların maddiyyatına ciddi təsir edən gündür.

Əksər insanlar həmin gün uzun müddət arzusunda olub ala bilmədiyi geyimi əldə edə bilir. Qeyd edim ki, bəzi insanlara bu, psixoloji təzyiqdir. Bu prosesə o insanlar daha çox inanır ki, onlar məqsədlərinə çatmaq üçün müəyyən günləri gözləyir, əldə etdiyindən böyük zövq alır. Hər kəs öz təfəkkür potensialına uyğun olaraq hadisələri analiz edir. Buna görə də insanları müəyyən səviyyələrə bölüb nəsə deyə bilmərik. Hər kəs hadisələri öz psixologiyasına uyğun olaraq dəyərləndirir".

**■ Mövzunun insanların sosial həyatı ilə bağlılığına gəldikdə, bu barədə məlumat verən Sosial Araşdırmalar Mərkəzinin sədri Nail Cəlil bildirdi ki, "qara cümə" kampaniyasına marağın artması son aylarda baş verən tədrici bahalaşma və infilyasiyanın bir qədər artması ilə birbaşa bağlıdır:**

"Bu, təbii ki, əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərir. Belə şəraitdə müxtəlif güzəştlərə, o cümlədən, məhsulların güzəştli satışının təşkil edildiyi "qara cümə"lərə tələbat artır. Bunun başlıca səbəbi odur ki, qiymət artımı şəraitində müəyyən məhsulların süni artımı yaranır. Məhsul satılmır, xüsusi zərurət olmadıqda kimsə onu almaq istəmir. İstənilən qiymət artımı aşağı və orta təbəqələrə birbaşa təsir edir, insanların çoxunun büdcəsinə uyğun deyil.

Digər tərəfdən, belə vəziyyət insanları qiymətlərdə güzəştlərin edildiyi məkanlara, günlərə - "qara cümə"lərə yönəldir. Onlarda belə güzəşt kampaniyalarından faydalanmaq istəyi, necə deyərlər, "qara cümə"lərdən mənəvi, iqtisadi, psixoloji asılılıq yaradır.Tədricən belə vəziyyət özünəməxsus sosial dinamiklik yaradır. Ehtiyacı olan insanlar bunu dəbə və normaya çevirirlər. Başqa sözlə, "qara cümə"lərdən faydalanaraq, sosial çətinliklərini qismən də olsa, həll etməyə çalışırlar".

Sədr deyir ki, adətən, belə kampaniyaları böyük müəssisələr, iri marketlər təşkil edirlər. Belə güzəştlər kütləvi istehsal edilən, gündəlik tələbat doğuran və nisbətən tez xarab olan məhsullara daha çox tətbiq edilir. Kiçik mağazaların burada iştirak payının artmasına gəldikdə, onlar bununla mümkün ziyandan xilas olmağa, risk səbətinə daxil məhsulu güzəştli satıb gəlir əldə etməyə, daha çox müştəri cəlb edib daha çox qazanmağa səy göstərirlər.

Görünən odur ki, qara cümə işbazlar üçün fürsət yaradıb. Bəs görəsən, bu adla saxta endirim kapmaniyaları tətbiq edən mağazaların daha çox populyar olduğu bir vaxtda əsl endirimlərdən necə yararlanmaq olar? Ölkəmizdə hansı mağazalar həqiqi təkliflər irəli sürür?

**■ Bu suallara isə aydınlığı Marketoloq Bəylər Əlizadə gətirdi. Bildirdi ki, "Black Friday"i bir çox şirkətlər "aldatmaq" məqsədi ilə istifadə etsələr də, bundan düzgün şəkildə yararlananlar da var. Məqsəd fərqli ola bilər.** Siz bu fürsəti yeni məhsulunuza diqqət çəkmək üçün də xərcləyə bilərsiniz, stokda qalan malınızı əritmək üçün də, qısa zamanda məhsul satıb müəyyən qazanc əldə etmək üçün də:

"Düşünürəm ki, ölkəmizdə "Black Friday" zamanı ən aktiv şirkətlər elektronika sektorunda olur. Son dövrlər bəzi şirkətlər bu kampaniyanı digital satışlarını artırmaq, müştəridə onlayn vərdişləri yaratmaq üçün də istifadə edir. Şirkətdən asılı olaraq hər bir yanaşma düzgün sayıla bilər. Fikrimcə bu il də digitala yönləndirmə böyük şirkətlərdə daha çox olacaq. Ən əsası şirkətlər bu xüsusi günə həmin gün deyil erkən başlamalıdırlar. Yalnız o halda müştəriləri aldatmadan, məqsədlərinə xidmət edən düzgün təkliflər verə bilərlər".

Qeyd edək ki, "qara cümə" ABŞ-da noyabr ayının dördüncü cümə axşamı günü qeyd olunan, Şükran günündən sonrakı cüməyə verilən qeyri-rəsmi bir addır. 1952-ci ildən bəri Şükranlıqdan sonrakı gün Amerikanın Milad alış-veriş mövsümünün başlanğıcı kimi qəbul edilib. Buna baxmayaraq, "qara cümə" termini son onilliklərə qədər elə də geniş yayılmamışdı. "Qara cümə" günü bir çox mağazada yüksək səviyyədə təşkil olunan endirimlər təqdim edilir, və mağazaların açılışı çox erkən saatlara, bəzən də gecəyarısına təsadüf edir. Bəzi hallarda mağazalar endirimləri Şükran günü axşam saatlarında başladır. Həmin gün məşhur şirkətlər öz məhsullarını 80% güzəştlə satır.

*"Belə şəraitdə müxtəlif güzəştlərə, o cümlədən, məhsulların güzəştli satışının təşkil edildiyi qara cümələrə tələbat artır...*

*Son dövrlər bəzi şirkətlər bu kampaniyanı digital satışlarını artırmaq, müştəridə onlayn vərdişləri yaratmaq üçün də istifadə edir...*

"Qara cümə" ABŞ-dan başqa daha bir neçə ölkədə keçirilir. 2013-cü ilin dekabrın 6-dan Rusiyada həyata keçirilən bu tədbiri ABŞ-dan fərqləndirən əsas xüsusiyyət odur ki, burada güzəştli məhsullar, əsasən, internet vasitəsilə həyata keçirilir. "Qara cümə" rəsmi bir tətil deyil, lakin həmin gün Kaliforniya da daxil olmaqla, Amerikanın digər bir neçə ştatında hökumət işçiləri üçün "Şükranlıqdan sonrakı gün" adı altında qeyri-iş günü elan edilib.

Məktəblərdə isə həm Şükran günü, həm də ondansonrakı cümə tətil elan olunur, bu da şənbə və bazar da daxil olmaqla, dörd günü əhatə edən bir həftəsonu mənasını verir. Belə olduqda, "qara cümə" bu dördgünlük tətil müddətində davam edir, bununla da potensial alıcıların sayı artmış olur. 2005-ci ildən etibarən "qara cümə" ABŞ-da ilin ən işlək alış-veriş günü adını almışdır.

✍ **Banu**

## Sorğu

**Uzun müddətli fasilədən sonra, nəhayət, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, oktyabrın 1-dən konfrans, konsert zallarının, kinoteatrların, teatrların fəaliyyəti bərpa olundu. Bundan sonra, teatr zallarının ümumi tutumunun 50 faizindən çox olmamaq şərtilə tamaşaçı qəbul etməyə icazə verildi. Hazırda teatrların fəaliyyətinin bərpasının üzərindən ay yarım vaxt keçib.**



# Teatrlar maddi ziyanla işləyir

Bəs görəsən, teatrlar özləri pandemiyadan sonrakı vəziyyətlə razıdırlarmı? Mövcud durum və tamaşaçı sayı aktyorları və texniki heyəti nə dərəcədə qane edir? Pandemiyadan öncəki tamaşalarla indiki arasında hansı fərqlər var? Hafta.az-ın əməkdaşı bütün bu suallara cavab tapmaq üçün teatrlar arasında sorğu apardı.



**■ Azərbaycan Pantomima Teatrının aktyoru və direktoru, Əməkdar artist Elman Rəfiyev bildirdi ki, pandemiya digər sahələrdə olduğu kimi, onların da işinə çox mənfi təsir göstərib:**

"Aktyorlar uzun müddət səhnədən kənarda qaldılar. Aktyorluq elə bir sənət növüdür ki, mütləq surətdə mütəmadi olaraq səhnədə olmaq lazımdır. Biz evdə oturduğumuz müddətdə də boş-bekar qalmadıq. Teatrımızın bədii rəhbəri və baş rejissoru Bəxtiyar Xanızadənin təklifi ilə onun tapşırıqları evdə aktyorlar tərəfindən icra olundu. Pantomima teatrı bədən və mimika teatrı olduğu üçün pandemiya bizə daha çox təsir edə bilərdi. Aktyor heyəti evdə bu işlə vaxtaşırı məşğul oldular". Direktorun sözlərinə görə, oktyabrın 1-dən teatrların fəaliyyəti bərpa edilsə də, Pantomima Teatrında tamaşalar başqa teatrlarla müqayisədə bir qədər gec səhnələşdirildi:

"Bizim tamaşalarımız hərəkət və mimikaların üzərində qurulub. Hər bir tamaşada da 1000-2000 hərəkət var. Bu hərəkətləri 2 il fasilədən sonra yenidən yada salmaq lazım idi. Həm Bəxtiyar Xanızadənin həm də aktyor heyətinin səyi nəticəsində biz bunları yenidən bərpa etdik. Noyabrın 20-dən hər həftənin sonu - şənbə və bazar günləri tamaşalarımıza start verdik". Əməkdar artist zalın ümumi tutumunun 50 faizinə qədər tamaşaçı gəlməsi məsələsinin teatrda yaratdığı qəribə vəziyyətlə bağlı da danışdı. Belə ki, Pantomim teatrında cəmi 40 yer var. Bu halda da səhnədə 14 aktyor olanda, onları zalda cəmi 20 tamaşaçı izləyir:

"Qanun qarşısında boynumuz qıldan incədir. Əgər qanun qəbul edilibsə bizim borcumuz ona riayət etməkdir. Aktyor üçün zalda tamaşaçının olması daha məqsədəuyğundur. Bu gün qanun zalın 50 faizi qədər tamaşaçıya icazə verirsə, biz də həmin şəxslər üçün tamaşa oynayacağıq. Bu amil başqa teatrlarda özünü bir o qədər də būruzə vermir.

Pantomim Teatrında cəmi 40 yer var. Onun yarısı da edir 20 yer. Təsəvvür edin ki, səhnədə 14 aktyor var, zalda 20 tamaşaçı. Lakin bu gələn 20 tamaşaçı həqiqətən də teatra gəlibsə və pantomimi izləmək istəyirsə, bu bizim uğurumuzdur. Bəxtiyar Xanızadənin çox gözəl bir sözü var: "Zalda 5 adam olsa belə. Onlar həqiqətən teatra gəlib baxırsa, bu tamaşaçı üçün tamaşa oynamaq bizim borcumuzdur. Bu 5 izləyici sabah 10 nəfər olacaq".

**■ Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı isə bildirdi ki, oktyabrın 1-dən etibarən teatrlar öz**




**fəaliyyətini yenidən bərpa edib. Akademik Milli Dram Teatrında tamaşaların nümayişi isə oktyabr ayının 15-dən başlayıb. Həmçinin karantin dövründə teatrların bağlı olması, hazırkı vəziyyətə çox mənfi təsir göstərib:**

"Buraya tək iqtisadi deyil, eyni zamanda yaradıcı məsələlər də aiddir. Bilirsiniz ki, həmin dövrdə aktyorlar sosial şəbəkələrdə yaxud da kütləvi informasiya vasitələrində narazılıqlarını bildirirdilər. Bu narahatlıqlar təbii ki anlaşılan idi. Onlar ömürboyu səhnədə olan şəxslərdir. İki ilə yaxın müddətdə səhnədən uzaq düşən aktyor heyəti üçün bu olduqca çətin mərhələ idi. İndi artıq Akademik Milli Dram Teatrında həftədə 3 dəfə olmaqla tamaşalar nümayiş etdirilir. Cari repertuarda olan tamaşalar da bərpa prosesindədir. Bir müddətdən sonra teatr əvvəlki stabil rejiminə qayıdacaq. İndi hələlik həftədə 3 dəfə olmaqla nümayiş edilir". Mətbuat katibi onu da vurğuladı ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargahln qərarı ilə zalın yalnız 50 faizinə bilet satışı nəzərdə tutulub. Hazırda tamaşaçılar covid pasportu və tibbi maska olmadan teatrın inzibati binasına buraxılmırlar. Həmçinin içəridə sosial məsafə də gözlənilir:

"Düşünürəm ki, bütün bu qaydalara əməl edilsə, bundan sonra teatrların fəaliyyəti ilə bağlı hər hansı məhdudiyyət olmayacaq. Maraq çox böyükdür. Ümid edirik, tezliklə yoluxma statistikası aşağı düşəcək. Beləcə teatr zallarının 100 faizlik dolumuna icazə verilsin. Bu da işimizi daha əlverişli qurmağa böyük kömək edər".

**■ Növbəti həmsöhbətimiz olan Şuşa Dövlət Musiqili Dram Teatrının baş inzibatçısı Yaşar Muradov da uzun müddət sonra fəaliyyətini bərpa edən teatrın hazırkı vəziyyətindən məmnunluq ifadə etdi. O, hazırda teatrların ziyana işlədiyini də dilə gətirdi:** "Pandemiyadan sonra teatrların fəaliyyətinin bərpa edilməsi hamı kimi bizim də ürəyimizcə oldu. Bu gün bütün teatrlarda olduğu kimi, Şuşa Dövlət Musiqili Dram Teatrında da pandemiya qaydalarına əməl olunur. Zalımızın 50 faiz həcmində tamaşaçı qəbul edirik. İndi teatrlar ziyanla işləyir. Bilet satılır, lakin zal yarıya qədər dolur. Bilirsiniz ki, payız mövsümü ilə əlaqədar istilik təchizatı və işıq sistemi teatrların büdcəsinə böyük təsir göstərir. Tamaşaçı rəğbəti, tələbi olsa da qaydalar onların tam qəbuluna icazə vermir. Hazırda 18 yaşdan yuxarı hər kəsdən covid pasportu tələb edirik. Aktyor heyəti də həmçinin vaksin olunub işlərini davam etdirirlər".

**■ Sonuncu həmsöhbətimiz Gənc Tamaşaçılar Teatrının mətbuat xidmətinin rəhbəri Pərvin Nurəliyeva oldu. O da bizlərə teatrda yaranmış vəziyyət və aktyor heyətinin məmnunluğundan bəhs etdi:**



"Pandemiya bütün sahələrə olduğu kimi, incəsənətdə də müəyyən fasilələrə səbəb oldu. Əsas məsələ bundan ibarətdir ki, teatrlar bağlandı və 2 ilə yaxın fasilə yarandı. Hazırda biz yaranmış boşluğu doldurmağa çalışırıq. Pandemiyadan əvvəl taetrımızda müxtəlif tamaşaların məşqləri gedirdi. İndi də fəaliyyət bərpa edilən kimi həmin məşqlər davam etdirilir. Ən yaxın zamanda teatrımız yeni tamaşaları ilə də öz tamaşaçılarını sevindirəcək". Mətbuat katibi yaxın zamanlarda səhnələşdiriləcək yeni tamaşalar haqqında da oxucularımızı bilgiləndirdi. O, həmçinin qeyd etdi ki, indi həm də köhnə tamaşalar bir qədər yenilənmiş formatda teatrsevərlərə təqdim olunur:

"Yeniliklərdən, Bəhram Osmanovun quruluş verdiyi İsmayıl İmanın "Balaca yaramaz məxluq" pyesi əsasında eyni adlı tamaşasını, Əməkdar artist Nicat Kazımovun Şıxovun "Qağayı" pyesinə hazırladığı tamaşanı misal göstərə bilərəm. Həmçinin gənc rejissorumuz Ayla Osmanova karonavirus pandemiyasına həsr olunmuş "Mələk" pyesinə quruluş verir. İndi həm də köhnə tamaşalarımız bir qədər yenilənmiş formatda teatrsevərlərə təqdim olunur".

P.Nurəliyevanın fikrincə, 2 illik böyük fasilənin ardından tamaşaçıların zallara daha az sayda buraxılması aktyorları elə də ciddi şəkildə narahat etmir:

"Teatr fəaliyyət göstərmədiyi vaxt aktyorları ən narahat edən məqam işləməmək idi. Hər kəs səhnə üçün darıxırdı. İndi yeni qaydalara görə zalın yalnız 50 faizə qədəri dolur. Bununla belə bir sənət adamı üçün tamaşaçı sayı o qədər də böyük şərt deyil. Şərt yaradıcılıqla məşğul olmaqdır. Mənə elə gəlir ki, aktyorlar fəaliyyətin bərpa olunmasından yalnız məmnunluq duya bilərlər".

**■ Məhəmməd Hüseynov, Ağdam Dövlət Dram Teatrının direktoru: Pandemiya bəlası bəlkə də incəsənətin digər növlərinə nisbətən ən çox teatr sənətinə zərbə vurmuşdur.** Həm aktyorların səhnə vərdişlərinə, həm teatra qiymət verən tamaşaçıların teatrdan uzaqlaşmasına böyük ziyan vermişdir. Repertuarda olan bir çox tamaşaların yenidən bərpa olunmasına ehtiyac yaranmışdır. İndi artıq teatrların fəaliyyətinə icazə verilmişdir. Sadaladığım səbəblərə görə hələlik tamaşaçı problemimiz vardır. Hal-hazırda teatrımızda 2 yeni tamaşanın hazırlığı prosesi gedir. S. İbrahimlinin "Xeyrullanın toyu" və Nekrasovun "Sələmçi" əsəri. Tamaşaları teatrın baş rejis-



soru Kərim Həsənov və quruluşçu rejissor Səbuhi Əhmədov hazırlayırlar. Bizim teatrımızla Lənkəran teatrı arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. 23 noyabr 2021-ci tarixdə həmin kollektiv bizdə qastrol səfərində olacaq, dekabr ayında isə Lənkəran şəhərinə səfərimiz planlaşdırılmışdır. Onu da deyim ki, yaradıcılıq mövsümü açılandan bəri bir neçə tamaşamız nümayiş olunmuş və tamaşaçılarımız razılıqlarını bildirmişlər.

✍ **Banu**

# "Mavi pələng" ilinin dəbi

## Moda





**Gülnarə Xəlilova,**
modelyer-dizayner, teatr və kino rəssamı, sənətşünaslıq üzrə fəlsəfə doktoru

***Dünyanın müxtəlif şəhərlərində pandemiya əleyhinə görülən tədbirlərin yumşaldılması ilə moda həftələrinin təşkili baş tutur. 2022-ci il kolleksiyasının sərgiləndiyi dəb nümayişlərindən göründüyü kimi, kiçik paltarların gələn il hökmranlıq edəcəyi şübhəsizdir. Yeni ilin gəlməsinə hələ 1 aydan çox vaxt qalmasına baxmayaraq, artıq ilin trendinə çevriləcək rəngi, paltar forma və kəsimləri indidən məlumdur. Hafta.az-ın əməkdaşı "Pələng ili"ndə bizi moda aləmində gözləyən yeniliklərin müzakirəsini modelyer-dizayner, teatr və kino rəssamı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova ilə apardı.***

***- Gülnarə xanım, 2022-ci ilin moda aləmində hansı rənglərin trend olacağı haqqında məlumat verərdiniz.***

- 2022-ci ilin əsas rəngi göy olacaq. Yeni il "mavi pələng" ilidir. Buna baxmayaraq, yataq tonları öz aktuallığını qoruyacaq. Həmçinin qırmızı, moruq, bənövşəyi, zümrüd rəngləri, göyün bir çox çalarları, pudra tonu, sarı kimi trend çalarlar ilin sevilən rəngləri sırasında olacaq.

***- İlin tərzli qiyafətlərini hazırlamaq üçün parçalardan daha çox hansılara üstünlük veriləcək?***

- Parçalarda trend mövzusu yoxdur. Hazırda bir çox parçalar aktualdır. Bu hal növbəti il üçün də keçərlidir. Məsələn, trikotajlar, denim (cins parçalardan hazırlanan geyimlər), məxmərlər, parıltılı parçalar, atlas və damalı parçalar çox istifadə olunacaq parça çeşidləri sırasındadır. Bundan başqa, həddindən artıq çox naxışların istifadə edildiyi dizaynlar, rəngli və əlvan materiallar, pələng naxışları gündəmə çevriləcək. Üzərində çoxlu loqo olan brend firmaların parçaları özü də növbəti il üçün tərz sayılacaq.

> *"Zövqlüsənsə, hər zaman dəblisən, gözəlsən. Seçim edən zaman çalışaq ki, diqqətli olaq. Əvvəl belə bir söz işlədirdik*

***- Geyim forma, ölçü və fasonlarında pələng ili özünü nə cür büruzə verəcək?***

- Pələng ilini qarşılayırıq və az əvvəl də vurğuladım ki, pələngnaxışlı geyimlər növbəti ilboyu trenddə olacaq. Mütəxəssislər bu tərz parçalardan tikilmiş libaslardan uzaq durmağı tövsiyə edir. İl sahibi bunu özünə "siqnal" kimi görə bilər. Ümumilikdə, bu il çox fərqli tərzlər moda trendinə çevriləcək. 2000-ci illərin dəbi - jiletlər, isti gödəkcələr, toxunma geyimlər, məxmər parçalardan hazırlanmış paltarlar, şalvar üzərindən ətəyindən geyinilməsi, parıltılı geyimlər, biserlərdən, damalı və naxışlı parçalardan hazırlanmış, yubkalı kostyumlar, ağ köynəklər, şəffaf parçalardan tikilmiş paltarlar ilboyu aktual olacaq. Həmçinin qısa geyimlər, həddindən artıq çox uzun qolları olan, paltolar, jaketlər zövqlü xanımların əsas seçimləri sırasında yer alacaq. Düzdür, bu geyimləri hər kəs istifadə etməyəcək, lakin daima dəbi izləyib onunla ayaqlaşmağa çalışan şəxslər belə, fərqli və maraqlı qiyafətlərə üstünlük verəcəklər. Görünən odur ki, bütün bu sadaladıqlarımla yanaşı, növbəti il üçün paltarların üzərində fərqli-fərqli ölçülərdə dəliklərin olması, açıq çiyinlər, şalvarlı kostyumlar da trenddir.

***- Son illər bolkəsimli geyimlər dəb aləminin bəzəyinə çevrilib. Bəs 2022-ci il üçün libasların forma və biçimlərində bizi hansı yeniliklər gözləyir?***

- Ümumilikdə, bolkəsimli geyimlər hər zaman dəbdədir. Hələ bu forma trend olmadığı vaxtlarda belə hazırladığım geyimlərdə bol kəsimlərdən istifadə edirdim. Bu mənim daim üstünlük verdiyim tərzdir. Onu da deyim ki, dəbi diktə edən insanlar onu formalaşdıran zaman həm də istehlakçıları düşünürlər. Onların alıcılıq qabiliyyətinin daha çox nədə özünə göstərməsinə fikir verib bunları nəzərə alırlar. Ona görə də bolkəsimli geyimlər rahat və istifadəli olduğundan, 10 ilə yaxındır, belə paltarlar aktuallığını qoruyub saxlayır.

***- Şarmlı görüntünü tamamlayan aksessuarlar, ayaqqabı və çantalarla barəsində nələri deyə bilərsiniz?***

- Uzun illərdir ayaqqabı və çanta uyğunluğu bir qədər diqtə edilmir. Hələ də onları dəstləşdirməyi sevənlər az deyil. Fikrimcə, hər iki variant düzgündür və istifadə etmək olar. Əsas odur, geyindiyin üsluba uyğun çanta, ayaqqabı və aksessuar seçimi edilsin. Bəzi geyim tərzlərində çox qarışıq üslublardan istifadə edilir. Buna heç vaxt yaxşı baxmıram. Mənim çox sevərək işlətdiyim bir fikrim var: "Ən böyük trend zövqlü olmaqdır". Zövqlüsənsə, hər zaman dəblisən, gözəlsən. Seçim edən zaman çalışaq ki, diqqətli olaq. Əvvəl belə bir söz işlədirdik: "Dəbin arxasınca qaçıb ona çatmaq mümkün deyil". Son illərdə isə moda o qədər də sürətlə dəyişmir. Daha çox insanların rahatlığını təmin etməyə çalışır.

***- Sizcə, yeni ildən moda aləmində təəccüb doğuracaq yeni üslublar gözləyək?***

- Dəb aləmində ən böyük dəyişiklik maskalarla bağlıdır. Hələ ki, bundan böyük sensasiya yoxdur. Yeniliklər və rəngarəngliklər isə həddindən artıq çoxdur. Hazırda dəb tendensiyasında bir çox üslublar gündəmdədir. Bunu da bir növ sensasiya adlandırmaq olar. Bütün üslublar dəbdə olacaq.

*✍ Banu*

# "Bakcell" "Milli KSM Mükafatı 2020"nin qalibləri sırasında

**"Bakcell" şirkəti "Milli KSM Mükafatı 2020"-nin qalibi elan olunub. "Yaxşı səhiyyə və Rifah" nominasiyasında təqdim edilmiş bu mükafat şirkətin xüsusi karantin rejimi dövründə Azərbaycan vətəndaşlarına dəstək göstərmək məqsədilə həyata keçirdiyi genişmiqyaslı tədbirlər planı çərçivəsində görülən işlərə görə təqdim edilib.**



Bakcell Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronavirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən ekspress-testlərin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bütün karantin mərkəzlərində çalışan həkimlərə və müxtəlif karantin mərkəzlərindəki vətəndaşlarımıza Bakcell tərəfindən ödəmə kartları hədiyyə olunub. Şirkət Bakının Binə qəsəbəsində yaşayan 650 aztəminatlı ailə üçün ərzaq yardımı proqramı həyata keçirib.

Bununla yanaşı, pandemiya dövründə abunəçi və əməkdaşlarının təhlükəsizliyini qorumaq, bu sahədə maarifləndirməni həyata keçirmək məqsədilə Bakcell uzunmüddətli məlumatlandırma və kommunikasiya proqramları həyata keçirib. Həmçinin, Bakcell öz əməkdaşlarına evdən işləmək üçün lazımi şərait yaradıb.

Artıq 3-cü dəfə təşkil edilən "Milli KSM Mükafatı" müsabiqəsinin əsas məqsədi dövlət siyasətinin, Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələrin davamı olaraq ölkəmizdə həyata keçirilən Korporativ Sosial Məsuliyyət layihələrinin və xeyriyyəçilik təşəbbüslərinin artmasına təkan vermək, həmçinin KSM layihələr həyata keçirən şirkətlərin fəaliyyətini daha geniş miqyasda təqdir etməkdir.

"Milli KSM Mükafatı 2020"-nin qaliblərini müəyyən edən Komissiyanın tərkibinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Asan Xidmət, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası (AQSİA) və Proaktiv PR Agentliyinin nümayəndələri daxil olub.

Qeyd edək ki, 2020-ci il ərzində həyata keçirilmiş sosial layihələr aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən təhlil edilərkən BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsas götürülüb.

## HƏFTƏ REYTİNQ

### Həftənin RÜTBƏLİSİ



Prezident İlham Əliyev general-leytenant Kərim Vəliyevlə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Kərim Tofiq oğlu Vəliyevə "general-polkovnik" ali hərbi rütbəsi verilib. Kərim Vəliyev Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavinidir.

### Həftənin TƏHVİL-TƏSLİMİ



Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev hakim "Nur Otan" partiyasının sədrliyindən gedir. Bu barədə məlumatı keçmiş Prezidentin mətbuat katibi Aydos Ukibay açıqlayıb. Nursultan Nazarbayev sözügedən partiyanın sədrinin səlahiyyətlərinin ölkə Prezidenti Kasım-Jomart Tokayevə verilməsi barədə qərar qəbul edib.

Qeyd edək ki, 30 ilə yaxın müddətdə Qazaxıstana rəhbərlik edən Nazarbayev 2019-cu il martın 20-də prezident postundan getsə də, Təhlükəsizlik Şurasının rəhbəri və "Nur Otan" partiyasının lideri postlarını qoruyub saxlamışdı.

### Həftənin MƏHKUMU



ABŞ-ın Kansan şəhərində üç cinayət işlədiyinə görə, 43 il həbs yatan Kevin Strickland azadlığa buraxılıb. 1979-cu ildə ömürlük həbs cəzasına məhkum edilən şəxsin bəhs edilən cinayətləri törətdiyini sübuta yetirən faktlar aşkarlanmayıb. Məsələ burasındadır ki, Stricklanda qarşı şahid qismində çıxış edən şəxs də ifadəsini dəyişdirib və əvvəlkini polisin təzyiqi altında verdiyini bildirib. 19 yaşında ikən həbs edilən və 62 yaşında azadlığa buraxılan Strickland, ABŞ tarixində haqsız yerə ən uzun müddət həbsdə yatan şəxslərdən biri olub.

### Həftənin QADAĞASI



Gürcüstanda onlayn kazinolar qadağan oluna bilər. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili deyib. Qaribaşvili onlayn kazinoların qadağan olunmasının vacibliyini vurğulayıb və bildirib ki, Gürcüstanda qumar aludəçilərinin böyük əksəriyyəti işsiz və ehtiyac içərisində olan insanlardır. Baş nazir, həmçinin vurğulayıb ki, onlayn kazinoların fəaliyyəti nəticəsində Gürcüstan artıq 1,5 milyard lari itirib, çünkü bu şirkətlərin əksəriyyəti xarici şirkətlərdir.

### Həftənin ÇAĞIRIŞI



Ermənistanda məktəb müəllimi Baş nazir Nikol Paşinyana və onun ailə üzvlərinə qarşı zorakılığa çağırışda ittiham olunub. İşin materiallarına görə, təqsirləndirilən şəxs İrəvan məktəbinin tarix müəllimi Akop Qriqoryandır: "2021-ci il mayın 21-də 7-ci sinif şagirdləri üçün tarix dərsi keçərkən, xidməti vəzifəsindən istifadə edərək, şagirdlərin iştirakı ilə o (Qriqoryan) Baş nazir Nikol Paşinyana və onun ailə üzvlərinə qarşı ictimai çağırışlar səsləndirərək deyib ki, Nikol Paşinyanı öldürmək, ailəsini isə yandırmaq lazımdır". Tarix müəlliminə qarşı cinayət işi başlanılıb.

### Həftənin TƏYİNATI



Azərbaycan Cüdo Federasiyasına (ACF) yeni baş katib təyin olunub. ACF İcraiyyə Komitəsi bu vəzifəni Rəşad Rəsulluya həvalə edib. O, yeni vəzifədə Elmar Babanlını əvəzləyib. Qeyd edək ki, Rəşad Rəsullu Azərbaycan Dövlət İqtisad Universitetində "Beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə bakalavr və magistr təhsili alıb. Əmək fəaliyyətinə Mərkəzi Bankda başlayan R.Rəsullu karyerası dövründə ölkə daxilində və xaricində müxtəlif qurumlarda aparıcı və rəhbər vəzifələrdə çalışıb.

### Həftənin NAMİZƏDİ



"Grammy-2022" namizədlərinin siyahısı açıqlanıb. Nominasiyalar üzrə lider caz ifaçısı Con Batist olub. O, 11 kateqoriyada yer alıb. Castin Biber, Doja Cat və H.E.R.-in hər biri isə 8 nominasiyada yarışacaq. Əsas musiqi mükafatı uğrunda son 40 ildə ilk dəfə yeni albom buraxan İsveçin ABBA qrupu da mübarizə aparacaq. Qeyd edək ki, təntənəli mərasim 2022-ci il yanvarın 31-də baş tutacaq.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Barselona və Salonikidə Vətən müharibəsi ilə bağlı məlumatlandırıcı aksiya...**

# Terrorçuların adına məktəblər

**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Belə hallar ilk növbədə media vasitəsi ilə Rusiya vətəndaşlarına çatdırılmalı və Rusiyanın öz qanunlarına zidd hərəkət edərək "SS"ə verdiyi dəstək ictimaiyyət tərəfindən tənqid olunmalıdır.

▸▸ Səh. 3

## STATİSTİKA



■ ABŞ-da hər gün 426 min ədəd mobil telefon zibilliyə atılır.

■ Statistikaya əsasən, ABŞ-da 2004-cü ildə 29569 nəfər silahdan açılan atəşlə qətlə yetirilib.

■ ABŞ-da supermarketlərdə hər saatda 1,14 milyon paketdən istifadə edilir.

■ İqtisadi hesablamalara görə, ABŞ İraqdakı müharibənin hər saatına 12,5 milyon dollar xərcləyib.



▸▸ Səh. 7

# Teatrlar maddi ziyanla işləyir